RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 48 (8364) ÇƏRŞƏNBƏ AXŞAMI, 3 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin təşəbbüsü ilə reallaşan "Cənub qaz dəhlizi" bütün iştirakçı ölkələrin davamlı inkişafına xidmət edəcək

## Məşvərət Şurasının VI toplantısı diqqəti layihənin sonuncu seqmentinin - TAP-ın uğurla tamamlanmasına yönəltdi

**"Cənub qaz dəhlizi" Məşvərət Şurasının VI toplantısı da Bakıda keçirildi. 2015-ci ildən başlayaraq bu toplantıların hamısının Azərbaycanın paytaxtında keçirilməsi ölkəmizin həmin nəhəng layihənin təşəbbüsçüsü və aparıcı qüvvəsi olduğunu bir daha təsdiq edir.**

Məşvərət Şurasının budəfəki iclası bir növ nailiyyətlərin hesabatına çevrildi. İclasda 13 ölkənin səlahiyyətli nümayəndələri, çoxsaylı enerji şirkətləri və maliyyə qurumları iştirak etdi. Bu da təsadüfi deyil. Çünki "Cənub qaz dəhlizi" Avropanın enerji təhlükəsizliyində strateji amildir. Dəhlizi yaradan üç kəmərin ümumi uzunluğunun 3500 kilometr olması, layihənin ümumi dəyərinin 40 milyard dollara yaxın vəsait təşkil etməsi faktları da deyilənlərə əyani misaldır.

"Cənub qaz dəhlizi"ndə yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Albaniya, Yunanıstan, Bolqarıstan və İtaliya iştirak edirlər. Beynəlxalq maliyyə qurumlarının, ABŞ-ın, Böyük Britaniyanın və Avropa İttifaqının dəstək verdiyi layihə bu il uğurla tamamlanacaq. Belə ki, dörd seqmentdən üçü artıq fəaliyyətdədir. "Şahdəniz-2" və Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi layihələrinin başa çatdırılması 2018-ci ilin may ayında Bakı yaxınlığındakı Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin təntənəli açılışına imkan verdi. Təxminən bir ay bundan sonra TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) istifadəyə verildi. 2019-cu ilin sonunda isə Türkiyənin ərazisi ilə 1850 kilometr məsafə boyu uzanan bu kəmər Yunanıstan sərhədinə çataraq TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) qovuşdu. TAP-ın çəkilişi də artıq başa çatmaq üzrədir. İşlərin 92 faizi tamamlanıb.

"Cənub qaz dəhlizi"nin bu möhtəşəm uğurlarına Məşvərət Şurasının toplantılarının böyük dəstəyi olub. Şura illərdir layihənin icrasında səyləri birləşdirən və gücləndirən işçi mexanizmə çevrilib.

Prezident İlham Əliyevin toplantıdakı nitqində dediyi kimi: "Məşvərət Şurası bu layihənin həyata keçirilməsində çox vacib rol oynayıb. Çünki biz hər il təkcə Bakıda görüşmürük. İl ərzində çoxsaylı görüşlər, məsləhətləşmələr keçirilir və layihəni irəliyə aparmaq üçün vacib qərarlar verilir. Azərbaycan bu müddət ərzində həm də etibarlı tranzit ölkəyə çevrildi. Xəzərin şərq sahillərində yerləşən ölkələr beynəlxalq bazarlara öz karbohidrogen ehtiyatlarını Azərbaycan ərazisindən nəql edirlər".

Avropa Komissiyasının nümayəndəsi Klaus-Diter Borxardt də tədbirin əhəmiyyətini yüksək dəyərləndirmişdir: "Məşvərət Şurasının bu VI toplantısı tamamilə özəl bir iclasdır. Çünki bir tərəfdən bizim qeyd ediləsi işlərimiz var və Prezident Əliyevin "Cənub qaz dəhlizi"nin böyük mərhələləri ilə bağlı bizə verdiyi məlumatdan görə bilərsiniz ki, bütün bunlara 2011-ci ildə start verilib. Biz indi sadəcə 2020-ci ildəyik və buna nail olunması özlüyündə tamamilə inanılmazdır.

Ardı 5-ci səh.

# Xətainin heykəlinin yerinin dəyişdirilməsi paytaxtımızda yol-nəqliyyat infrastrukturuna mühüm töhfə olacaq





Martın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şah İsmayıl Xətainin heykəlinin köçürüldüyü yeni salınmış parkda olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Mərkəzi Neftçilər Xəstəxanasının yanında Şah İsmayıl Xətainin heykəlinin köçürüldüyü yeni salınmış parka gəldi.

Dövlət başçısı heykəlin önünə gül dəstələri qoydu.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov burada görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, tarixi şəxsiyyət Şah İsmayıl Xətainin heykəli iki magistral yolun ortasında yerləşirdi. Bu isə insanların ziyarət etmək üçün heykələ yaxınlaşmasını çətinləşdirirdi, eyni zamanda yolda tıxacın yaranmasına səbəb olurdu. Bununla bağlı əhali tərəfindən Bakı Şəhər İcra Hakimiyyətinə müraciətlər edilib. Bütün bunlar və Şah İsmayıl Xətainin tarixi şəxsiyyət olduğu nəzərə alınaraq dövlət başçısının tapşırığına əsasən, onun heykəli uyğun yerə köçürülüb və burada yeni park salınıb. Parkda əhalinin istirahəti üçün lazımi şərait yaradılıb, o cümlədən oturacaqlar qoyulub və ətraf abadlaşdırılıb. Bu addım şəhər sakinləri və paytaxtımızın qonaqlarına heykəli rahat ziyarət etməyə şərait yaradır.

Ardı 2-ci səh.

# "Könüllülər ili" - tarixdə yeni səhifə

**Könüllülük cəmiyyət üçün böyük bir dəyərdir. Bu dəyər insanları vahid niyyət ətrafında birləşdirir. Vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin çox uğurlu formatı kimi özünü doğruldur. Könüllülük həm də vətənpərvərlik məktəbidir. Öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.**

Bu gün bütün dünyada ictimai və cəmiyyət maraqları naminə təmənnasız əmək sərf edən insanların sayı on milyonlarladır. Dövlət, yerli özünüidarə orqanları, qeyri-hökumət qurumları könüllü fəaliyyətin təşkilinə və həyata keçirilməsinə kömək göstərir və sevindiricidir ki, ölkəmiz də bu prosesin mərkəzindədir.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2020-ci il respublikada "Könüllülər ili" elan edilib.

### Tarixi irsimizdən gələn ənənələr

Könüllülüyün qayəsi vətənpərvərlikdir. Həm yaşadığın ölkəni, həm də ümumən dünyanı qəlbən sevməkdir. Cəmiyyəti müsbət mənada dəyişmək, irəli aparmaqdır. Könüllü olmaq insana başqaları üçün lazımlılığını hiss etdirir. Yeni dostlar qazanmaq, müxtəlif qruplarda həmfikirləri ilə görüşmək, hər hansı problemin həllində iştirak etmək, lider bacarıqlarını mənimsəmək, özünü ifadə edə bilmək və doğrultmaq, komanda işi bacarıqlarını mənimsəmək və s. imkanları yaradır.

Könüllülük fəaliyyəti Azərbaycan cəmiyyəti üçün əslində yenilik deyil. Bu fəaliyyət qloballaşma proseslərinin təsiri ilə həyatımıza dünən, bu gün daxil olmayıb. İctimai işlər üçün heç bir göstəriş, xahiş gözləmədən qol çırmalamaq, ehtiyacı olana təmənnasız kömək göstərmək xalqımızın ruhundadır. Bu torpaqlarda yaşayan insanlar min illərdir ki, könüllülüyü bir dəyər kimi yaşadıblar. Mənəvi əmanət olaraq nəsillərdən-nəsillərə ötürüblər. Azərbaycan insanları həmişə xeyirdə-şərdə, ictimai işlərdə heç bir fərdi mənfəət güdmədən birgə çalışıblar, bir-birinə dəstək olublar. Yükün ağırlığına-yüngüllüyünə baxmayaraq, əllərini daşın altına qoyub maneələri yoldan kənarlaşdırmağa çalışıblar. El-obalarımızda insanları nəcib niyyətlər ətrafında bir araya gətirən, irəli düşüb onları xeyirxah işlərə sövq edən, ən böyük fədakarlıq nümunələri göstərən nüfuzlu ağsaqqallarımız, ağbirçəklərimiz həmişə olub, var və yenə də olacaq. Azərbaycan xalqı əsrlər boyudur ki, xeyirxahlığı, fədakarlığı, könüllü və təmənnasız kömək ənənələrini yaşadıb, yaşadır və yenə də yaşadacaq.

Ardı 3-cü səh.



# Ərzaq təhlükəsizliyinin əsas şərti yerli istehsalı artırmaqdır

## Ölkəmizdə bu istiqamətdə əməli tədbirlər həyata keçirilir

**Bu gün dünyada ərzaq təhlükəsizliyi, əhalinin keyfiyyətli ərzaqla təminatı xüsusi önəm kəsb edir.**

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) açıqladığı son rəqəmlərə görə, Yer üzündə 800 milyondan çox insan aclıqdan əziyyət çəkir. Ümumdünya Səhiyyə Təşkilatının 2017-ci ilin hesabatına əsasən isə hər il dünyada 600 milyon insan qida məhsullarından zəhərlənir ki, onlardan da 125 mini uşaq olmaqla 420 min nəfəri ölür.

Göründüyü kimi, qida mənşəli xəstəliklər və zəhərlənmə halları əhalinin sağlamlığına və rifahına mənfi təsir göstərməklə yanaşı, ailələri, icmaları, təsərrüfat subyektlərini, ölkələri, ümumilikdə, dünyanı çətin duruma salıb.

Ardı 5-ci səh.

# Azərbaycanda koronavirus kütləvi epidemiyaya çevrilə bilməz

## Dövlət tərəfindən bu fəsadın qarşısının alınması üçün effektiv tədbirlər görülür

Çindən başlayıb dünyaya yayılan yeni növ koronavirus xəstəliyi (COVID-19) ilə bağlı xəbərlər dünyanın əsas gündəm mövzusudur. Müxtəlif ölkələrdə hər gün xəstəliyə yeni yoluxma halları qeydə alınır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) martın 1-nə olan məlumatına əsasən, dünyada 87137 (1739 yeni), Çində 79 968 (579 yeni), Çinin xaricində 58 ölkədə (5 yeni) 7169 yoluxma halı (1160 yeni) təsdiqlənib. Virusun başlanğıcı sayılan Çində xəstəlikdən 2873 ölüm halı (35 yeni), digər ölkələrdə 104 ölüm halı (18 yeni) baş verib.

### Koronavirusun ölkəmizdə yayılmaması üçün bütün lazımi tədbirlər görülür

Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında operativ qərargahın məlumatına görə, ölkəmizdə 3 nəfər koronavirusa yoluxub. Hazırda hər 3 şəxsin vəziyyəti sabitdir.

Azərbaycanda koronavirus aşkarlanan ilk şəxs 1997-ci il təvəllüdlü Rusiya vətəndaşıdır. Digər şəxs 17 iyul 1973-cü il təvəllüdlü Azərbaycan vətəndaşıdır. Xəstəxanaya fevralın 26-da daxil olan həmin şəxs 1 gün Tehranda, 3 gün isə Təbrizdə səfərdə olub. 29 aprel 1998-ci il təvəllüdlü üçüncü koronavirus aşkarlanan şəxs isə fevralın 26-da xəstəxanaya yerləşdirilib. O, Qum şəhərindən ölkəmizə gəlib.

Azərbaycanda koronavirusla bağlı məsələ ilk gündən diqqət mərkəzindədir. Nazirlər Kabinetinin sərəncamı ilə 2020-ci ilin 30 yanvar tarixində "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı" təsdiq edilib və nəzərdə tutulmuş tədbirlər həyata keçirilməkdədir. Qeyd olunan xəstəliyin yayılma coğrafiyasının geniş miqyas aldığını nəzərə alan Nazirlər Kabineti daha geniş əhatəli Tədbirlər Planı təsdiqləyib.

Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradılıb.

Ardı 4-cü səh.

# Xətainin heykəlinin yerinin dəyişdirilməsi paytaxtımızda yol-nəqliyyat infrastrukturuna mühüm töhfə olacaq





Əvvəli 1-ci səh.

Heykəlin postamenti də yenilənib. Heykəlin köçürülməsi prosesi abidəyə heç bir xələl gətirilmədən həyata keçirilib.

Paytaxt Bakının abadlaşdırılması, yeni istirahət məkanlarının salınması, tarixi irsimizin qorunması Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Şah İsmayıl Xətainin heykəlinin uyğun yerə köçürülməsi və burada parkın yaradılması bu istiqamətdə atılan növbəti addımdır. Bu layihə sakinlərin istirahətinin təmin olunması üçün böyük rol oynayır. Abidəni ziyarət edənlərin rahatlığı üçün yaxınlıqda 36 yerlik avtomobil dayanacağı da tikilib.

Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli dövlət başçısına bu ərazidə yol-nəqliyyat infrastrukturu barədə məruzə etdi.

Prezident İlham Əliyev yeni yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı tapşırıq və göstərişlərini verdi.

Qeyd edək ki, Xətainin heykəlinin yerinin dəyişdirilməsi paytaxtımızda yol-nəqliyyat infrastrukturuna mühüm töhfə olacaq. Belə ki, bu, Nizami küçəsi ilə Sabit Orucov, Mehdi Mehdizadə küçəsi ilə 28 May küçəsi istiqamətində yolları birləşdirən nəqliyyat qovşağının yaradılmasına şərait yaradır. Bu isə öz növbəsində, bu ərazidə yarana biləcək tıxacların qarşısının alınmasına və nəqliyyat vasitələrinin hərəkətinin intensivliyinin təmin edilməsinə imkan verəcək.

# Azərbaycan üçün Polşa çox vacib tərəfdaş və dost ölkədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rafal Poborskinin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Rafal Poborski fəxri qarovul dəstəsinin qarşısından keçdi.

**Səfir Rafal POBORSKİ** dedi: Cənab Prezident, məni Azərbaycan Respublikasına fövqəladə və səlahiyyətli səfir olaraq akkreditə edən etimadnaməni və sələfimin geri çağırılması ilə bağlı məktubu Sizə təqdim etməkdən şərəf duyuram. Zati-aliləri, ümid edirəm ki, mənim missiyam Azərbaycan və Polşa xalqları arasındakı dostluq münasibətlərini gücləndirəcək.

Rafal Poborski etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlət başçısı səfirlə söhbət etdi.

**Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, cənab səfir, sizi görməyə çox şadam. Azərbaycandakı fəaliyyətinizdə sizə uğurlar arzulayıram. Əminəm ki, sizin görəcəyiniz çox işlər var. Çünki ölkələrimiz arasında münasibətlər inkişaf edir və biz çox güclü siyasi əlaqələr yaratmışıq. Mən məmnunluqla ölkənizə rəsmi səfərimi və Prezident Dudanın Azərbaycana səfərini xatırlayıram. Biz ikitərəfli əməkdaşlığımızla bağlı çoxşaxəli məsələləri müzakirə etmişik. Bu ilin yanvarında biz Davosda görüşümüz zamanı tərəfdaşlığımızın strateji əhəmiyyətini bir daha təsdiqlədik. Bizim üçün Polşa çox vacib tərəfdaş və dost ölkədir. Uzun illər ərzində ölkələrimiz arasında sıx dostluq münasibətləri inkişaf etmişdir. Ötən illər ərzində çoxsaylı təmaslarımız olub. Şadam ki, hazırda biz təkcə siyasi sahədə deyil, iqtisadi sahədə də inkişafı görürük. Bildiyiniz kimi, bizim Mərkəzi Avropa üzrə regional ticarət nümayəndəliyimiz Polşada yerləşir. Bu fakt onu göstərir ki, dünyanın bu regionunda sizin ölkənizi əsas ticarət tərəfdaşımız hesab edirik. Əminəm ki, qarşıdakı illərdə bizim əlaqələrimiz inkişaf edəcək. Prezident Duda ilə birlikdə bu ilin yanvarında gələcək planlarımızı müzakirə etmişik. Mən Sizə uğurlar arzulayıram.

**Səfir Rafal POBORSKİ** dedi:

- Təşəkkür edirəm, zati-aliləri. İkitərəfli münasibətlərimiz barədə ətraflı söylədiklərinizdən sonra nəyisə əlavə etmək çətindir. İcazə verin deyim ki, mən dostluq münasibətlərimizi gücləndirmək üçün Prezidentimiz tərəfindən buraya göndərilmişəm. Bilirəm ki, hər iki zatialilərinin bir-biri ilə çox yaxşı təmasları var. Siz çox tez-tez görüşürsünüz. Bizim ikitərəfli münasibətlərimizin təməl aspektlərini çox yaxşı vurğulayırsınız. Mən Polşadakı həmkarlarımın köməyi ilə həm ikitərəfli siyasi dialoqumuzun inkişafına töhfə vermək, həm də iqtisadi münasibətləri inkişaf etdirmək üçün əlimdən gələn və mümkün olan hər şeyi etməyə çalışacağam. Hər iki ölkə region üçün çox əhəmiyyətlidir. Biz nəqliyyat qovşaqlarından faydalanmaq üçün çox yaxşı mövqedəyik. Biz çox böyük məmnuniyyətlə Sizin enerji siyasətinizdəki nailiyyətlərin şahidi olmuşuq. Bilirəm ki, bununla bağlı şirkətlərimiz arasında dialoq aparılır. Ümid edirik ki, bu, uğurlu layihələrlə nəticələnəcək, birlikdə hər iki tərəf faydalana biləcək. Əlbəttə, mədəni əlaqələrin və xalqlar arasında təmasların yaradılması sahəsində çox yaxşı perspektivlər mövcuddur. Ümid edirik ki, paytaxtlarımız arasında birbaşa uçuşlar açılacaq. Bu layihənin həyata keçməsi üçün də əlimdən gələni edəcəyəm.

Görüşdə enerji, nəqliyyat, kənd təsərrüfatı, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## "Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 4 iyul tarixli 1554 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 4 iyul tarixli 1554 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 602; 2009, № 2, maddə 74, № 6, maddə 424; 2012, № 2, maddə 137; 2014, № 2, maddə 112, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1590; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə təsdiq edilmiş komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Azərbaycan Respublikasının Baş Naziri

**Komissiya sədrinin müavini**

Azərbaycan Respublikasının İqtisadiyyat naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikasının Maliyyə naziri
Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri
Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri
Azərbaycan Respublikasının Mədəniyyət naziri
Azərbaycan Respublikasının Təhsil naziri
Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri
Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti
"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri
Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri
Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri (məsul katib).".

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Gürcüstan tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 mart 2020-ci il*

## "Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 fevral tarixli 2670 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 fevral tarixli 2670 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 78, № 11, maddə 1030; 2010, № 2, maddə 80, № 9, maddə 773; 2012, № 2, maddə 107; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə təsdiq edilmiş komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın həmsədri**
Azərbaycan Respublikasının Maliyyə naziri

**Komissiyanın üzvləri**
Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini
Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası Energetika nazirinin müavini
Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini
Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası Təhsil nazirinin müavini
Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini
"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti
Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini
Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri.".

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə İordaniya Haşimilər Krallığı tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 mart 2020-ci il*

## Gəncə şəhərinin, Daşkəsən, Göygöl və Samux rayonlarının yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə şəhərinin, Daşkəsən, Göygöl və Samux rayonlarının ərazi vahidlərinin, o cümlədən yeni yaşayış massivlərinin (siyahı əlavə olunur) qazlaşdırılması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.1-ci yarımbəndində göstərilmiş məbləğin 9,0 (doqquz) milyon manatı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 mart 2020-ci il*

## "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2016 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2016 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 248; 2009, № 6, maddə 424; 2010, № 2, maddə 80, № 9, maddə 773; 2011, № 6, maddə 519; 2012, № 2, maddə 105; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521, № 9, maddə 1664; 2018, № 8, maddə 1677; 2019, № 3, maddə 492) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Azərbaycan Respublikası Vergilər nazirinin müavini" və "Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri" sözləri çıxarılsın;

1.2. "Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Beynəlxalq əlaqələr şöbəsinin müdiri (məsul katib)" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri (məsul katib)" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Türkiyə Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 mart 2020-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## Gəncə şəhərinin, Daşkəsən, Göygöl və Samux rayonlarının 2020-ci ildə qazlaşdırılması nəzərdə tutulan ərazi vahidlərinin siyahısı

| Sıra №-si | Ərazi vahidləri |
|---|---|
| | **Gəncə şəhəri** |
| 1. | Gəncə şəhərində 2 yeni massiv |
| | **Daşkəsən rayonu** |
| 1. | Aşağı Daşkəsən kəndi |
| 2. | Kəmərqaya kəndi |
| | **Göygöl rayonu** |
| 1. | Toğanalı kəndi |
| | **Samux rayonu** |
| 1. | Sərkar kəndində yeni massiv |

## "Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 226 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 226 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 243; 2010, № 9, maddə 773; 2012, № 2, maddə 112; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2018, № 8, maddə 1677) 1-ci hissəsi ilə təsdiq edilmiş komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının İqtisadiyyat naziri

**Komissiyanın üzvləri**
Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini
Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini
Azərbaycan Respublikası Maliyyə nazirinin müavini
Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini
Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin birinci müavini
"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin vitse-prezidenti
Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasında fövqəladə və səlahiyyətli səfiri.".

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə İsveçrə Konfederasiyası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 mart 2020-ci il*

# "Könüllülər ili" - tarixdə yeni səhifə




*Əvvəli 1-ci səh.*

XIX əsrin sonu və XX əsrin əvvəllərinə nəzər salsaq, onda da indiki könüllülük fəaliyyətinə bənzər bir sıra xeyriyyə cəmiyyətlərinin yarandığını görəcəyik. Xalqın öndə gedən insanları bu cür cəmiyyətlərdə könüllülük prinsipi ilə müəllim, tibb bacısı və digər sahələr üzrə çalışmağı özlərinə mənəvi borc, şərəf bilirdilər. Ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik nemətinə qovuşandan sonra da ictimai-siyasi proseslərdə könüllülərin kifayət qədər rolu oldu. Qanlı 20 Yanvar hadisələri zamanı insanların xəstəxanalara gedərək qan verməsi xalqımızın könüllülük dəyərlərinin bariz nümunəsi idi. Bu gün ölkənin inkişafı üçün zəhmətini əsirgəməyən, Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin öz məqsədlərinə çatmasına töhfə verməkdən ötrü cani-dildən çalışan, Vətənə sevgisini sözdə deyil, işdə göstərən gənc könüllülərimiz də eyni ruhun daşıyıcısıdırlar.

### Bu gün və gələcək qarşısında məsuliyyət

Hazırda Azərbaycanda könüllülük fəaliyyətinin böyük bir ictimai hərəkata çevrilməsi Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra apardığı dövlət gənclər siyasətinin uğurlu nəticələridir. 1998-ci ildə Gənclər və İdman Nazirliyi BMT-nin İnkişaf və Könüllülər Proqramı ilə birlikdə 650 gənci əhatə edən ilk pilot-layihə həyata keçirdi. Məhz 1998-2000-ci illərdə reallaşdırılan proqram nəticəsində könüllülük prinsipləri daha geniş auditoriyada təbliğ olunmağa başlandı və ilk könüllü komandası yaradıldı. Ulu Öndər Heydər Əliyev tərəfindən başlanılmış bu hərəkat, bu ideya hazırda geniş vüsət alıb.

Prezident İlham Əliyevin yeni inkişaf mərhələsində uğurla davam etdirdiyi bu siyasət Azərbaycan gəncliyinin ümumdövlət mənafeləri ətrafında bir araya gətirilməsində böyük rol oynadı. Gənclərdə Vətənə, ölkəmizin tarixinə, milli-mənəvi dəyərlərinə hörmət ruhu, cəmiyyətin bugünü və gələcəyi qarşısında sosial məsuliyyət hissi aşıladı. Son illər Azərbaycanda dövlət səviyyəsində geniş vüsət alan, dəstəklənən, inkişaf etdirilən könüllülük fəaliyyəti əslində ulularımızdan gələn nəcib ənənələrin yeni formada təqdimatıdır. Bu mənəvi irsin yenidən həyat qazanmasıdır.

Azərbaycanda könüllülük fəaliyyətinin təşviq olunması məqsədilə dövlətimiz tərəfindən son illər zəruri addımlar atılmaqdadır. İlk növbədə bu sahədə normativ-hüquqi baza təkmilləşdirildi. Könüllülük fəaliyyətinə dövlət dəstəyi mexanizmləri formalaşdırıldı. Bir faktı qeyd edək ki, Azərbaycan MDB dövlətləri arasında könüllülərin fəaliyyəti ilə bağlı qanun qəbul edən ilk ölkələrdən biridir. 2009-cu ildə qəbul edilmiş "Könüllü fəaliyyət haqqında" qanun Azərbaycanda bu hərəkatın yeni inkişaf mərhələsinə qədəm qoymasına yol açdı. 10 maddədən ibarət bu geniş və əsaslı qanunla respublikada könüllülük fəaliyyətinin hüquqi əsasları müəyyənləşdi.

Könüllülük hərəkatı ilə bağlı ilk böyük sınağımız 2012-ci ildə oldu. Ölkəmizdə keçirilən "Eurovision" Beynəlxalq Mahnı Müsabiqəsinin təşkili işinə 1200-dən çox gənc könüllü cəlb edildi, onlarla lazımi işlər aparıldı. Gənclərimiz sınaqdan üzüağ çıxdılar və bu da onların nə qədər böyük potensiala malik olduqlarını göstərdi. Azərbaycan gəncliyinin bu potensialının üzə çıxarılmasında, onlara meydan verilməsində müsabiqənin Təşkilat Komitəsinə rəhbərlik edən ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rolu çox böyük oldu. Yüzlərlə könüllü bu beynəlxalq tədbirin böyük uğurla keçməsinə töhfə verdi. Uğurla başa çatan faydalı təcrübədən digər sahələrdə də istifadə olunmağa başlandı. Bakıda keçirilmiş I Avropa Oyunları daha geniş miqyasda oldu. Bu mötəbər, çoxnövlü idman turnirində 17 minə yaxın gənc könüllülük fəaliyyətinə cəlb edildi. Həmin tədbirdə iştirak etmək üçün 20 mindən artıq gənc müraciət etmişdi. Onların arasından hazırlığı, xarici dil bilikləri daha yüksək səviyyədə olan gənclər seçilərək bu işlərə cəlb olundu. Daha sonra ölkəmizdə keçirilən "Formula-1", IV İslam Həmrəyliyi Oyunları və digər irimiqyaslı tədbirlərdə könüllülərimiz çox yaxından iştirak etdilər. Onların hər birinə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın imzası ilə diplomlar təqdim edildi. Bu, həmin gənclərin əməyinə dövlət səviyyəsində verilən yüksək qiymət kimi könüllülərin yaddaşında qalacaq. Karyeralarında xüsusi rol oynayacaq.

Ötən il fevralın 1-də keçirilən Azərbaycan gənclərinin respublika toplantısında Prezident İlham Əliyev könüllülük hərəkatında gənclərin rolunu xüsusi qeyd etdi. Dövlət başçısı bu sahədə fəaliyyətin daha da genişlənməsi və bütün istiqamətləri əhatə etməsi ilə bağlı gənclərə çağırış ünvanladı. Ölkə Prezidenti gənclərlə keçirdiyi görüşlərdə bu hərəkata qoşulmağı onlara tövsiyə etdi.

Sevindirici haldır ki, gənclərimiz bu missiyanı uğurla yerinə yetirir. Hazırda Azərbaycanın 20 mindən artıq gənci könüllülük hərəkatında iştirak edir. Ölkəmizdə könüllülük fəaliyyətinin əhatə dairəsi genişlənir.

### Nəcib iş

Prezident İlham Əliyev 29 dekabr 2012-ci ildə Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və onun tabeliyində olan 1 saylı "ASAN xidmət" Mərkəzinin açılışı zamanı könüllülərlə görüşdü, onların bu hərəkatdakı rolunu xüsusi vurğuladı: "Gənclərdə bu işlərlə məşğul olmaq üçün maraq və həvəs vardır. Ümumiyyətlə, könüllülük işi çox nəcib işdir və hər bir gəncin öz dövlətinə bağlılığını göstərir. Eyni zamanda burada təcrübə əldə etmək üçün də yaxşı imkanlar vardır. Onlar gələcək fəaliyyətlərində də, əlbəttə ki, bu təcrübədən istifadə edəcəklər".

Onu da qeyd edək ki, ölkəmizdə BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı 17 səfir seçilib. Onların vasitəsilə bir sıra kiçik layihələrin bölgələrdə həyata keçirilməsi nəzərdə tutulub. Bundan başqa, BMT-nin Könüllülük Proqramı ilə Niyyət Protokolu imzalanıb. Digər ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə könüllülərimizin daha geniş iştirakı planlaşdırılıb.

Yeri gəlmişkən, qeyd edək ki, könüllülük hərəkatının ölkəmizdə inkişaf etdiyi ilk illərdə cəmiyyətdə bu fəaliyyəti bəzən birmənalı qarşılamırdılar. Bu gün isə könüllülük hərəkatı artıq kütləvi hal alıb. İndiyədək həm Azərbaycan daxilində, həm də beynəlxalq ictimaiyyət qarşısında brendə çevrilmiş modellərimiz var. Azərbaycan brendi olan "ASAN xidmət"in yaradılması ilə respublikamızda könüllülük hərəkatı daha geniş vüsət alıb. Bu mərkəzləri artıq könüllülərsiz təsəvvür edə bilmirik və burada çalışan minlərlə gənc ölkəmizin inkişafına öz töhfələrini verir.

Prezident İlham Əliyev sonralar da könüllülərin "ASAN xidmət"dəki rolunu yüksək qiymətləndirmişdi: "Əlbəttə, biz "ASAN xidmət"i könüllülər hərəkatından ayıra bilmərik. Bu da bir yenilikdir. "ASAN" yaranana qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. Biz könüllülər haqqında eşitmişdik. Ancaq "könüllülər hərəkatı nədir?"- onu bilmirdik. Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır".

O vaxtdan bəri könüllülük gənclərimizin həyat tərzinə çevrilib. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranıb. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşdırılıb.

Könüllülərimiz öz kreativlikləri, təşəbbüskarlıqları, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs verirlər. Burada DOST könüllülərinin fəaliyyəti də xüsusi vurğulanmalıdır. Könüllülər burada vətəndaşların qarşılanması və xidmət pəncərələrinə yönəldilməsi, insan axınının, növbələrin idarə edilməsi, vətəndaşların məlumatlandırılması, elektron sistemlərdən istifadə, xidmət üzrə sənədlərin siyahısı ilə tanış edilməsi, müxtəlif anket, forma və s. doldurulmasında köməklik, əlillərə xüsusi diqqət və qayğı göstərilməsi, rəy sorğularının keçirilməsi və digər işləri bacarıqla və həm də böyük həvəslə yerinə yetirirlər. Hazırda "Könüllü DOST"un 167 məzunu var və onlardan 17-si artıq DOST mərkəzinin əməkdaşı kimi fəaliyyətini davam etdirir. "Könüllü DOST" Proqramı çərçivəsində hazırda fərqli layihələr həyata keçirilir. Bu, gənclərin əhəmiyyətli, işgüzar vərdişlər əldə etmək, fərdi inkişaf, asudə vaxtın səmərəli keçirilməsi, yeni dostlar və karyera yolunda ilk uğurlu addımların təməli baxımından faydalı hesab olunur. Proqram dövlətçilik və vətənpərvərlik, ictimai-sosial məsuliyyətlilik, birlik və əməkdaşlıq, eləcə də qayğıkeşlik və yardımsevərlik prinsiplərini öüzndə ehtiva edir.

2019-2025-ci illər üzrə "DOST regional prorqamı"na əsasən Bakıda və respublikanın regionlarında 31 DOST mərkəzinin açılması nəzərdə tutulub. Təbii ki, həmin mərkəzlər şəbəkəsi genişləndikcə onların ölkədə könüllülük hərəkatına töhfələri də artacaq.

Bu gün müharibə şəraitində yaşayan Azərbaycanın apardığı informasiya savaşının uğurlarında, tarixi həqiqətlərimizin dünyaya çatdırılmasında, "Xocalıya ədalət" kampaniyası kimi genişmiqyaslı beynəlxalq kampaniyaların təşkilində könüllülərimizin böyük əməyi var. Bu hərəkat Azərbaycanın beynəlxalq əlaqələrinin möhkəmlənməsinə, səmərəli əməkdaşlıqların qurulmasına da çox əhəmiyyətli töhfələr verir.

### Yeni səhifə

2019-cu il dekabrın 5-də Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş Könüllülük Həftəsi isə ölkəmizdə bu sahənin yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu bir daha nümayiş etdirdi. Bu inkişaf, qısa zamanda əldə edilmiş nəticə mötəbər beynəlxalq təşkilatlar tərəfindən də rəğbətlə qarşılanır. Azərbaycan dövlətinin könüllülük fəaliyyətinə verdiyi dəstək, bu fəaliyyəti təşviq edən dövlət siyasəti beynəlxalq səviyyədə alqışlanır. Çünki könüllülük fəaliyyəti məhəlli deyil. Bu, təkcə konkret bir ölkə səviyyəsində məhdudlaşıb qalmır. Könüllülük mahiyyətcə ölkə hüdudlarından kənara çıxan nəcib bir işdir.

Azərbaycan dövləti könüllülük fəaliyyətinin genişləndirilməsinə kömək göstərməklə gənclərin fərdi inkişafına təkan verir. Onlar üçün bərabər imkanlar mühiti formalaşdırır. Könüllülər hərəkatının iştirakçılarına öz potensiallarını reallaşdırmaqdan ötrü əlverişli mühit yaradır. Gənclərdə sosial məsuliyyət hissini gücləndirir. Gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etməyə çalışır. Bütün bunlarla da ölkəmizin bu günü və gələcəyi üçün sağlam bir nəsil yetişdirir.

* * *

Azərbaycan könüllüləri ümumbəşəri dəyərlər qədər milli köklərə də bağlıdırlar. Biliklidirlər, istedadlıdırlar, işıqlı Azərbaycan gəncliyini və gənclərin parlaq istedadını, tükənməz enerjisini təcəssüm etdirirlər. Ən gözəl cəhətlərdən biri isə budur ki, könüllülər öz fəaliyyətləri, çevrələri ilə respublikada çox gözəl bir sosial mühit yaradırlar. Özünün, ailəsinin, Vətəninin, ümumilikdə isə dünyanın gələcəyini xoşbəxt görmək istəyən hər bir gənc bu mühitə can atır. Belə bir imkanlar mühitinin bir parçası burada formalaşan dəyərlərin daşıyıcısı olmaq istəyir. Beləliklə, qeyri-sağlam düşüncənin, ziyanlı həyat tərzinin, pis vərdişlərin, qaragüruhun, cinayətkarlığa meyilliliyin çevrəsi getdikcə daralır. Cəmiyyət aydınlığa çıxır. Könüllülük fəaliyyəti insanlarımızda böyük rəğbət doğurur.

Azərbaycan Prezidentinin 2020-ci ili "Könüllülər ili" elan etməsi də Vətən naminə görülən işlərə qəlbinin sevgisini qoyan insanlarımıza rəğbətin, onların əməyinə verilən yüksək dəyərin ifadəsidir. 2020-ci il Azərbaycanın bu il qazanacağı sosial-iqtisadi, mədəni nailiyyətlərlə yanaşı, "Könüllülər ili"nin məzmunu ilə də tarixdə yeni bir işıqlı səhifə açacaq, öz nəcib niyyətləri, faydaları, yaratdığı möhtəşəm nəticələrlə yüz illər sonra da hər zaman qürurla xatırlanacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# AMEA-da Birləşmiş Nüvə Tədqiqatları İnstitutuna üzv Avrasiya ölkələri ilə əməkdaşlığın perspektivləri müzakirə olunub

Martın 2-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində "Birləşmiş Nüvə Tədqiqatları İnstitutuna (BNTİ) üzv Avrasiya ölkələri ilə əməkdaşlıq perspektivləri" mövzusunda müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevlə görüşüblər.



Prezident İlham Əliyevin elm siyasətinin həyata keçirilməsində AMEA-nın rolundan danışan akademik Ramiz Mehdiyev son aylarda akademiyada aparılan islahatlardan ətraflı bəhs edib. Azərbaycanla Rusiya, eləcə də digər MDB ölkələrinin elmi qurumları arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin vacibliyini qeyd edən akademik Ramiz Mehdiyev Birləşmiş Nüvə Tədqiqatları İnstitutu ilə elmi əməkdaşlıq perspektivlərini xüsusi vurğulayıb.

AMEA rəhbəri fundamental və təcrübi tədqiqatları və ən son texnologiyaların tətbiqi ilə uğurlu inteqrasiyanı özündə birləşdirən dünyaca məşhur elmi mərkəzlə əməkdaşlığın əhəmiyyətini bildirib, bugünkü görüşün elmi əlaqələrimizi daha da dərinləşdirəcəyinə əminliyini ifadə edib.

Sonra Rusiya Federasiyasının Elm və Ali Təhsil nazirinin birinci müavini, akademik Qriqori Trubnikov son vaxtlar Azərbaycan Milli Elmlər Akademiyası ilə qarşılıqlı elmi əlaqələrin əhəmiyyətli dərəcədə artdığını bildirib. Rusiya-Azərbaycan elmi əməkdaşlıq münasibətlərini yüksək dəyərləndirən nazir müavini son illər Rusiyada bir sıra elmi istiqamətlər üzrə həyata keçirilən layihələr barədə danışıb.

Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru, akademik Viktor Matveyev və Qazaxıstan Respublikasının BNTİ-nin səlahiyyətli nümayəndəsi, müxbir üzv Erqazi Kenjin əməkdaşlıq perspektivləri barədə söz açıblar.

Sonra "Birləşmiş Nüvə Tədqiqatları İnstitutuna (BNTİ) üzv Avrasiya ölkələri ilə əməkdaşlıq perspektivləri" mövzusunda müşavirə keçirilib.

AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev tədbiri giriş sözü ilə açaraq Azərbaycanla Rusiya arasındakı elmi əlaqələri yüksək qiymətləndirib. Rusiya Federasiyasının Elm və Ali Təhsil nazirinin birinci müavini, akademik Qriqori Trubnikov ölkələrimiz arasında qarşılıqlı elmi əməkdaşlığın perspektivlərindən söz açıb, AMEA-da keçirilən tədbirin xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək müştərək elmi əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsinin vacibliyini önə çəkib.

Müşavirədə Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru, akademik Viktor Matveyev, AMEA-nın Fizika İnstitutunun direktoru, akademik Nazim Məmmədov, Qazaxıstanın BNTİ-dəki səlahiyyətli nümayəndəsi, müxbir üzv Erqazi Kenjin, akademik Adil Qəribov, özbəkistanlı nümayəndə Ənvər İnoyatov, BNTİ-nin Maliyyə-iqtisad idarəsinin rəis müavini, fizika-riyaziyyat elmləri doktoru Mixail Vasilyev və başqaları məruzələrlə çıxış ediblər.

Mövzular ətrafında fikir mübadiləsi aparılıb, təkliflər səsləndirilib.

Sonda Azərbaycan Milli Elmlər Akademiyası ilə Birləşmiş Nüvə Tədqiqatları İnstitutu arasında əməkdaşlıq memorandumu imzalanıb.

Görüşdə AMEA Rəyasət Heyətinin üzvləri, ali təhsil müəssisələrinin rektorları, bir sıra ölkələrin səfirləri, xarici ölkələrin səlahiyyətli nümayəndələri və KİV təmsilçiləri iştirak ediblər.

# Təlimdəki vəziyyətə dair məruzələr dinlənilib

Genişmiqyaslı komanda-qərargah təlimlərinə rəhbərlik edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslərin ümumqoşun əməliyyatlarının aparılması zamanı fəaliyyətlərin təşkili üzrə qəbul edilən qərarlara dair məruzələri dinləyib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Zakir Həsənov təlimdə iştirak edən qoşunların idarə olunması üzrə müvafiq tapşırıqlar verib.

# Düşməni lərzəyə salan hərbi təlimlər

## Bu gün artırılan döyüş vərdişləri sabah Azərbaycanın qələbəsini təmin edəcək

**Bir aydan sonra şanlı aprel döyüşlərinin 3-cü ili tamam olacaq. Erməni hərbi birləşmələrinin hücumlarının və təxribatlarının qarşısının alınması məqsədilə ordumuzun keçirdiyi həmin hərbi əməliyyatlar məlum həqiqətlərə yeni işıq saldı.**



Bununla Azərbaycan göstərdi ki, ərazilərinin işğalı faktı ilə heç vaxt barışmayacaq və torpaqlarında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək. Ən əsası isə bu zəfər Azərbaycan Ordusunun qüdrətinin praktik təsdiqi oldu.

### Ordumuzun qüdrətlənməsi daim prioritetdir

Respublikamızda bu gün prioritet elan edilmiş vəzifələrdən biri ordunun gücləndirilməsi, ümumən silahlı qüvvələrin bütün qoşun növlərinin döyüş qabiliyyətinin artırılması, modernləşməsidir. Xüsusən döyüş imkanlarının artırılmasında ən son hərbi texnologiyaların tətbiqi diqqət yetirilən əsas məsələlərdəndir. Çünki Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı, status-kvonu qorumağa çalışdığı üçün ordumuz yenilməz və hər bir tapşırığı əzmlə yerinə yetirməyə qadir olmalıdır.

Bütün bu məsələləri daim diqqətdə saxlayan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordumuzun güclənməsi məqsədilə gərəkən addımları atır. Bu gün Azərbaycanın dövlət büdcəsində əsas yeri hərbi xərclərin tutması da tamamilə məntiqlidir. Bunun nəticəsidir ki, silahlı qüvvələrimizin döyüş imkan və qabiliyyətinin artırılması, qoşunların hərtərəfli və fasiləsiz maddi-texniki təminatının keyfiyyətinin yüksəldilməsi məqsədilə yeni silahların, texnikanın, hərbi əmlakın alınması, hərbi hissələrdə silahlanmaya qəbul edilməsi istiqamətində davamlı və ardıcıl işlər aparılır. Qoşunların silah və döyüş sursatı ilə təminatı, uzun müddət istismarda olan silahların və cihazların yeniləri ilə əvəzlənməsi, onların istifadəsinin düzgün təşkili məsələlərinə də xüsusi diqqət yetirilir.

Bütün bunlar göstərir ki, ordumuzun bu gün dünyanın ən güclü 50 hərbi gücü sırasında olması heç də təsadüfi deyil. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində ordumuzun arsenalı dünyanın aparıcı ölkələrinin istehsalı olan silah-sursatla genişlənir və bu işdə Azərbaycanın milli müdafiə sənayesi kompleksinin imkanları mühüm rol oynayır.

### Hər bir təlim döyüş qabiliyyətini artırır

Silahlı qüvvələrdə qarşıya qoyulan ən əsas məsələlərdən biri döyüş qabiliyyətinin daimi olaraq artırılmasıdır. Bu məqsədlə təkcə yeni hərbi texnikalar alınmır. Eyni zamanda mütəmadi olaraq keçirilən hərbi təlimlərdə müasir döyüş vərdişləri artırılır. Bu məsələ Ali Baş Komandan İlham Əliyevin xüsusilə nəzarətindədir. Təsdiq edilən plana əsasən, il ərzində bir neçə dəfə hərbi təlimlər keçirilir.

Son dövrlərdə isə ordumuzun təlimlərinin sayı xeyli artıb. Məsələn, təkcə 2019-cu ildə bir neçə genişmiqyaslı təlim keçirildi. Bu təlimlərdə qoşunlar hücum əməliyyatının hazırlanması, düşmənə bir neçə istiqamətdə zərbə vurulması, gecə vaxtı hücumun dəf edilməsi, müdafiəsinin yarılması və qruplaşmalarının darmadağın edilməsi, eləcə də düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərə raket-artilleriya atəşinin endirilməsi tapşırıqlarını yerinə yetiriblər.

Çətin relyef, gecə vaxtı və mürəkkəb radioelektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri də sınaqdan keçirilib.

### Qoşunlar yenidən poliqonlardadır

Dünəndən etibarən isə qoşunların 2020-ci tədris ilinin hazırlıq planına uyğun olaraq, ordumuz genişmiqyaslı yeni komanda-qərargah təlimlərinə başlayıb. Bu təlimlər informasiya texnologiyalarının geniş tətbiqi, həmçinin heyətlərin, vaxt göstəriciləri və qəbul edilən qərarların icrası planlarının yoxlanılmasının müvafiq idarəetmə orqanları ilə dəqiqləşdirilməsi ilə ərazi, xəritə və ərazinin maketi üzərində icra olunacaq. Təlimlərin hər bir mərhələsində döyüşə hazırolmanın yüksəldilməsi nəzərə alınmaqla qoşunların vaxtında və hərtərəfli, o cümlədən informasiya təminatının həyata keçirilməsi ilə qoşunların və silahların ən müasir idarəetmə üsullarının tətbiqi planlaşdırılaraq vəziyyətin inkişafının ən vacib məsələləri diqqətlə nəzərdən keçiriləcək.

Ordumuzun təlimlərinin miqyası hər dəfə Ermənistanın hərbi-siyasi dairələrində dərin narahatlıq və həyacanla qarşılanır. Birincisi, ona görə ki, düşmən Azərbaycanın hərbi gücünə bələddir. İkincisi isə hər dəfə təlimlərə cəlb edilən texnikanın sayı və icra edilən tapşırıqlar ermənilərin həsəd aparacağı bir səviyyədədir. Bu gün Ermənistanın özü kimi ordusu da miskin vəziyyətdədir. Ən əsası odur ki, rəsmi Yerevan bu təlimlərin son məqsədinin nədən ibarət olduğunu yaxşı dərk edir. Azərbaycan isə təlimlərdə həm də müasir hərbi əməliyyatların keçirilməsində tətbiq olunan modern hərbi texnikalarını sınaqdan çıxarır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Operativ qərargah

# Nazirlər Kabineti yanında operativ qərargah koronavirus təhlükəsi ilə bağlı bütün məlumatları ciddi araşdırır

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında operativ qərargah koronavirus təhlükəsi ilə bağlı mətbuatda yayılan və vətəndaşların müraciəti ilə daxil olan bütün məlumatları ciddi araşdırır və operativ reaksiya verir.



Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumatda deyilir ki, martın 1-də sosial şəbəkələrdə yayılmış və xüsusi geyimdə olan həkimlərin İçərişəhər metrostansiyası yaxınlığında görünməsini əks etdirən videomaterial, vətəndaşlar tərəfindən verilmiş məlumat əsasında, xəstəlik şübhəsi olan şəxsin nəzarət altına alınması zamanı çəkilib.

Koronavirus şübhəsi ilə müşahidə altına alınan və ya xəstəlik şübhəsi ilə Təcili Tibbi Yardıma müraciət edən istənilən şəxs olduğu yerdən məhz bu xüsusi geyimlərdə olan həkimlər tərəfindən xəstəxanaya aparılır. Bu görüntülər şəhərdə yeni koronavirus xəstəsinin aşkar olunduğu demək deyil, profilaktik tədbirlərin tərkib hissəsidir.

Ölkədə yeni koronavirus xəstəliyinə yoluxma faktı qeydə alınarsa, ictimaiyyət bu barədə məlumatlandırılacaq. Bir daha vətəndaşlardan süni ajiotaj yaratmamağı və rəsmi mənbələrdən paylaşılan məlumatları izləməyi xahiş edirik.

# Martın 4-də vətəndaşlarımızın İrandan Azərbaycana qayıtması təmin olunacaq

Fevralın 29-da İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında sərhədin müvəqqəti bağlanması ilə əlaqədar hazırda İranda olan Azərbaycan vətəndaşlarının ölkəyə qayıtmasını təmin etmək üçün müvafiq tədbirlər həyata keçirilir.

Bu məqsədlə martın 4-də İrandan Azərbaycana uçuş reysi təşkil olunacaq və xüsusi dəhliz vasitəsilə vətəndaşların ölkəyə qayıtması təmin ediləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında operativ qərargahın məlumatında bildirilir.

Qeyd olunur ki, Azərbaycana gəlmək istəyən vətəndaşların ölkəmizin Tehrandakı səfirliyi və Təbrizdəki baş konsulluğu ilə əlaqə saxlayaraq qeydiyyatdan keçmələri xahiş olunur.

İrandan təxliyə olunacaq vətəndaşlar müvafiq müayinə aparılması məqsədilə karantinə yerləşdiriləcəklər.

Xatırladaq ki, Dünya Səhiyyə Təşkilatının tələblərinə əsasən, koronavirus infeksiyasının aşkarlanması üçün karantin 14-29 gün müddətinə müəyyən edilib.

Azərbaycan Respublikası ərazisində koronavirusun yayılmasının qarşısını almaq üçün bütün vətəndaşların karantin rejiminin tələblərinə riayət etməsi tələb olunur.

Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinin ünvanı:
**Tehran şəhəri, Neyistan 3, Rastovan küçəsi, 16**
**Telefon: (+98 910) 559 56 10 (+9821) 22 55 82 99 (+9821) 22 55 42 55**

Azərbaycan Respublikasının Təbrizdəki baş konsulluğunun ünvanı:
**Təbriz şəhəri, Vəliəsr, Arif küçəsi, 9**
**Telefon: (+98 902) 095 13 83 (+98413) 333 48 02/04**

# Azərbaycanda sanitar-epidemioloji vəziyyət ciddi nəzarət altında saxlanılır

Koronavirus (COVİD-19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər davam etdirilir.




AZƏRTAC Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında operativ qərargaha istinadla xəbər verir ki, ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar müvafiq xəstəxanalar ayrılıb və karantin zonaları yaradılıb. İran İslam Respublikası ilə sərhəddə profilaktik tədbirlərin həyata keçirilməsi məqsədilə səyyar çadırlar qurulub. Əhalinin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə fevralın 29-da saat 16:00-dan etibarən İranla sərhədin məhdudlaşdırıcı rejim əsasında müvəqqəti bağlanması barədə qərar qəbul olunub. Koronavirusun aşkar olunduğu ölkələrdən gələn şəxslərin müayinəsi ilə bağlı zəruri tədbirlər həyata keçirilir. İxtisaslaşmış xəstəxanalar və laboratoriyalar xəstəliyin müayinəsi və müalicəsi üçün müvafiq avadanlıqlarla və dərman preparatları ilə təmin edilir. Peşəkar həkimlər bölgələrdə bu məqsədlə ayrılmış xəstəxanalara ezam olunublar.

İnfeksiyaya yoluxmuş şəxslərin müalicəsi, onların mümkün kontaktlarının müəyyənləşdirilməsi istiqamətində zəruri tədbirlər davam etdirilir.

Koronavirusun yayılmasının qarşısının alınması və müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə Dünya Səhiyyə Təşkilatı (DST) ilə birgə intensiv iş aparılır, verilən bütün tövsiyələrin yerinə yetirilməsi üçün ciddi səylər göstərilir.

Bundan başqa, Çin, Almaniya və digər ölkələrlə aparılan danışıqlar nəticəsində lazımi avadanlıqların, preparatlarının, mütəxəssislərin Azərbaycana gətirilməsi üçün müvafiq razılaşma əldə olunub.

Koronavirusun Azərbaycanda yayılmaması üçün bütün lazımi tədbirlər həyata keçirilir, sanitar-epidemioloji vəziyyət ciddi nəzarət altında saxlanılır.

# Martın 3-dən 9-dək bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi dayandırılıb

Koronavirus (COVID - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər davam etdirilir.

Nazirlər Kabinetinin yanında operativ qərargahdan AZƏRTAC-a bildiriblər ki, yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi, ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə 2020-ci ilin mart ayının 3-dən 9-dək (ilk tədris günü mart ayının 10-u müəyyən edilir) bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılmasına və bununla bağlı bütün tədbirlərin təxirə salınmasına dair qərar qəbul olunub. Bu müddət ərzində Təhsil Nazirliyinə və tabeliyində təhsil müəssisələri olan müvafiq icra hakimiyyəti orqanlarına bütün təhsil müəssisələrində tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlərin davam etdirilməsi tapşırılıb.

# Mədəniyyət Baş İdarəsinin tabeliyindəki məktəblərdə tədris, təlim-tərbiyə prosesi təxirə salınıb

BAKI ŞƏHƏR MƏDƏNİYYƏT BAŞ İDARƏSİ

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi ölkə ərazisində koronavirus (COVID - 19) infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında operativ qərargahın verdiyi qərara və Mədəniyyət Nazirliyinin müvafiq əmrinə əsasən martın 3-dən 9-dək Baş İdarənin tabeliyində olan bütün uşaq musiqi və incəsənət məktəblərində tədris, təlim-tərbiyə prosesinin dayandırılması və bununla bağlı bütün tədbirlərin təxirə salınması haqqında qərar qəbul edib.

İdarədən AZƏRTAC-a bildirilib ki, bu müddət ərzində bütün təhsil müəssisələrində tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlərin davam etdirilməsi tapşırılıb.

# Azərbaycanda koronavirus kütləvi epidemiyaya çevrilə bilməz

## Dövlət tərəfindən bu fəsadın qarşısının alınması üçün effektiv tədbirlər görülür

*Əvvəli 1-ci səh.*

Qabaqlayıcı tədbirlərin görülməsi və Azərbaycan Respublikasının bütün ərazilərində monitorinqin aparılması üçün aidiyyəti sahə mütəxəssislərindən ibarət ekspert qrupları da təşkil olunub.

Eyni zamanda əhalinin məlumatlandırılması və əsassız dezinformasiyaların qarşısının alınması məqsədilə qərargahın +994 12 492 41 61, +994 12 492 75 54, +994 12 505 03 30, + 994 12 505 13 33 nömrəli qaynar xətləri fəaliyyət göstərir.

Beynəlxalq standartlara cavab verən biotəhlükəsizlik laboratoriyaları tam gücü ilə ölkəmizin paytaxtında, eləcə də regionlarında fəaliyyət göstərir. Bu laboratoriyalar bir sıra xüsusi təhlükəli xəstəliklərin molekulyar diaqnostikası üzrə ixtisaslaşıb. Eyni zamanda koronavirus (COVİD-19) infeksiyasının yüksək həssaslıqla PZR metodu ilə təyini qısa zaman ərzində həyata keçirilir. Stasionar, səyyar və mobil tipli bu laboratoriyalarda həyata keçirilən diaqnostik metodlar, həmçinin koronavirusun təyini ÜST tərəfindən yüksək qiymətləndirilib.

Koronavirus (COVİD-19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə ölkədə təxirəsalınmaz tədbirlər davam etdirilir. Xəstəliyin ölkəmizdə yayılmaması üçün bütün lazımi tədbirlər həyata keçirilir, sanitar-epidemioloji vəziyyət ciddi nəzarət altında saxlanılır.

### Dərman vasitələrinin və tibbi ləvazimatların alınması üçün 10 milyon manat ayrıldı

Ölkəmizdə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar müvafiq xəstəxanalar ayrılıb və karantin zonaları yaradılıb. İran İslam Respublikası ilə sərhəddə profilaktik tədbirlərin həyata keçirilməsi məqsədilə səyyar çadırlar qurulub. Əhalinin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə fevralın 29-da saat 16:00-dan etibarən İranla sərhədin məhdudlaşdırıcı rejim əsasında müvəqqəti bağlanması barədə qərar qəbul olunub. Koronavirusun aşkar olunduğu ölkələrdən gələn şəxslərin müayinəsi ilə bağlı zəruri tədbirlər həyata keçirilir. İxtisaslaşmış xəstəxanalar və laboratoriyalar xəstəliyin müayinəsi və müalicəsi üçün müvafiq avadanlıqlarla və dərman preparatları ilə təmin edilir. Peşəkar həkimlər bölgələrdə bu məqsədlə ayrılmış xəstəxanalara ezam olunublar.

İnfeksiyaya yoluxmuş şəxslərin müalicəsi, onların mümkün əlaqələrinin müəyyənləşdirilməsi istiqamətində zəruri tədbirlər davam etdirilir.

Koronavirusun yayılmasının qarşısının alınması və müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə Ümumdünya Səhiyyə Təşkilatı ilə birgə intensiv iş aparılır, verilən bütün tövsiyələrin yerinə yetirilməsi üçün ciddi səylər göstərilir.

Çin, Almaniya və digər ölkələrlə aparılan danışıqlar nəticəsində lazımi avadanlıqların, preparatların, mütəxəssislərin Azərbaycana gətirilməsi üçün müvafiq razılaşma əldə olunub.

Baş nazir Əli Əsədov martın 2-də dərman vasitələrinin və tibbi ləvazimatların alınması üçün dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan vəsait ayrılması barədə sərəncam imzalayıb. Sərəncama əsasən, dərman vasitələrinin və tibbi ləvazimatların alınması üçün Azərbaycan Respublikasının 2020-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan 10 000 000 (on milyon) manat məbləğində vəsait ayrılıb.

### İrandakı Azərbaycan vətəndaşları təxliyə olunacaq

İranla Azərbaycan arasında sərhədin müvəqqəti bağlanması ilə əlaqədar hazırda İranda olan Azərbaycan vətəndaşlarının ölkəmizə qayıtmasını təmin etmək üçün müvafiq tədbirlər həyata keçirilir. Nazirlər Kabineti koronavirus infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə qonşu İranda olan Azərbaycan vətəndaşlarının təxliyəsinə başlayır. Bu məqsədlə martın 4-də İrandan Azərbaycana uçuş reysi təşkil olunacaq və xüsusi dəhliz vasitəsilə vətəndaşların ölkəmizə qayıtması təmin ediləcək. İrandan təxliyə olunacaq vətəndaşlar müvafiq müayinə aparılması məqsədilə karantinə yerləşdiriləcək: “Azərbaycana gəlmək istəyən vətəndaşların ölkəmizin Tehrandakı səfirliyi və Təbrizdəki Baş konsulluğu ilə əlaqə saxlayaraq qeydiyyatdan keçmələri xahiş olunur”, - Nazirlər Kabineti yanında operativ qərargahın məlumatında deyilib.

Qeyd edək ki, Naxçıvanın da İranla sərhədi tam bağlanıb. Türkiyə ilə sərhəd açıq olsa da məhdudlaşdırma var. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hüseyn Əsgərov bildirib ki, avtovağzallar, hava limanı, sərhəd tam gücləndirilmiş rejimdə çalışır: “Naxçıvana daxil olan, eyni zamanda, bizdən Türkiyəyə gedən avtomobillər dezinfeksiya edildikdən sonra buraxılır. Türkiyəyə sərnişin təyyarələri də, quru yolla nəqliyyat vasitələri də işləyir, gündəlik ərzaq məhsulları gətirilir-aparılır. Bütün avtovağzallarda, hava limanında müşahidə kameraları vasitəsilə insanların hərarəti uzaq məsafədən ölçülür, dezinfeksiya işləri mütəmadi olaraq davam etdirilir”.

Nazirlik rəsmisinin sözlərinə görə, virus təhlükəsi səbəbilə hər bir gömrüyün yaxınlığında müvafiq xəstəxanalar ayrılıb: “Əgər virus aşkarlanarsa, xəstələr xüsusi ayrılmış palatalara yerləşdiriləcək. Şükürlər olsun ki, hələlik bütün palatalar boşdur. Hazırda Naxçıvan Muxtar Respublikasında koronavirus şübhəsilə karantinə alınan xəstə yoxdur”.



Onu da qeyd edək ki, Azərbaycan İranla sərhədi bağlasa da, Bakı-Tehran- Bakı reysi üzrə uçuşlar hələ də təxirə salınmayıb.

Martın 5-dən etibarən Qazaxıstandan koronavirus infeksiyasının (COVID-19) yayıldığı ölkələrə uçuşların sayı azaldılacaq. Bununla əlaqədar Nur-Sultan-Bakı istiqamətində uçuşlar ləğv ediləcək. Almatı-Bakı və Aktau-Bakı istiqaməti üzrə uçuşlar həftədə bir dəfəyədək endiriləcək. Nur-Sultan-Bakı aviareysinin nə vaxt bərpa olunacağı hələ məlum deyil.

### Qaynar xətlərə müraciət edə bilərsiniz

Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativliyini təmin etmək məqsədilə müxtəlif qurumlarda qərargahlar yaradılıb və qaynar xətlər fəaliyyətə başlayıb.

Belə ki, Təhsil Nazirliyi təhsil müəssisələrində koronavirus xəstəliyi təhlükəsinin yayılmasının qarşısının alınması, vəziyyətin nəzarətdə saxlanılması və profilaktik tədbirlərlə bağlı operativ məlumatlandırmanın təmin edilməsi məqsədilə 7/24 saat fəaliyyət göstərən qərargah təşkil edib. Qərargah koronavirusla bağlı daxil olan sorğu və müraciətlərin araşdırılmasını və müvafiq qərarların təxirəsalınmadan qəbul edilməsini təmin edəcək. Rayon (şəhər) təhsil şöbələrinə (idarələrinə), ali təhsil və orta ixtisas təhsili müəssisələrinə, peşə təhsili müəssisələrinə, məktəbdənkənar təhsil müəssisələrinə və Təhsil Nazirliyinin tabeliyində olan ümumi təhsil müəssisələrinə koronavirus xəstəliyinin profilaktikası ilə bağlı məlumatların iş saatlarında dərhal nazirliyin müvafiq struktur bölmələrinə, qeyri-iş saatlarında Təhsil Nazirliyinin növbətçi əməkdaşına çatdırılması tapşırılıb.Vətəndaşlar təhsil müəssisələrində koronavirus xəstəliyi təhlükəsinə aid sorğularla bağlı nazirliyin xüsusi hallar üçün nəzərdə tutulmuş 146-2 qaynar xəttinə 24 saat ərzində müraciət edə bilərlər.

“Azərbaycan Dəmir Yolları”nın və tabeçiliyində olan qurumların rəhbər şəxslərindən ibarət də qərargah yaradılıb. Bununla yanaşı, Bakı Dəmiryolu Vağzalının qaynar xətti fəaliyyət göstərir: (+994 12) 499 61 11.

Martın 2-də Bakı Nəqliyyat Agentliyində də qərargah və (012) 404-79-95 nömrəli qaynar xətt işə başlayıb.

“Eyni zamanda bildiririk ki, ictimai nəqliyyatda kəskin respirator xəstəliklərin yayılmasına qarşı qabaqlayıcı tədbirlər davam edir. Bu çərçivədə, paytaxtın inzibati ərazisində müntəzəm sərnişindaşıma xətlərində fəaliyyət göstərən avtobuslar dezinfeksiya edilir. Son bir neçə gündə 1500-ə yaxın avtobusda dezinfeksiya işləri aparılıb. Dezinfeksiya tədbirlərinin davamlı olaraq aparılması ilə bağlı daşıyıcılarla görüş keçirilib və müvafiq tapşırıqlar verilib. Həmçinin qeyd edək ki, “Koroğlu” Nəqliyyat Mübadilə Mərkəzində dezinfeksiya tədbirlərinin sayı artırılıb”, - deyə qurum bəyan edib.

### Koronavirus dünyada

Son məlumatlara əsasən, Yaponiyada yeni koronavirusa yoluxanların sayı 961 nəfərə çatıb, 12 nəfər vəfat edib. Yoluxanların əksəriyyəti - 705 nəfər “Diamond Princess” kruiz laynerinin sərnişinləri və heyət üzvləridir. Artıq ölkənin şimalında yerləşən Hokkaydo prefekturasında fövqəladə vəziyyət elan edilib.

Almaniyada yeni növ koronavirusa yoluxma halı 129-a çatıb. Yoluxma halları 16 federal bölgədən doqquzunda qeydə alınıb. Yoluxanların ən çox qeydə alındığı bölgə Şimali Reyn - Vestfaliya (74), Bavariya (23), Baden-Vürtemberq (15) və Qessendir (8).

İran Səhiyyə nazirinin müavini Əlirza Rəisi ölkədə daha 12 nəfərin bu infeksiyanın qurbanı olduğunu bildirib. Beləliklə, İranda koronavirusdan ölənlərin sayı 66 nəfərə çatıb. Daha 523 nəfərdə koronavirus aşkarlanıb və bununla da virus daşıyıcılarının sayı 1501 olub, 291 nəfər isə bu xəstəlikdən sağalıb.

Ölənlər arasında İranın Məsləhət Şurasının üzvü Məhəmməd Mirməhəmmədi də var. Məsih Daneşvəri xəstəxanasında müalicə alan Məsləhət Şurasının üzvü dünən yeni koronavirusa yoluxması nəticəsində vəfat edib. Qeyd edək ki, İran parlamentinin 5 deputatı, səhiyyə nazirinin müavini, prezidentin müavini virusa yoluxanlar arasındadır. İranın Vatikandakı sabiq səfiri və bir neçə məşhur şəxs bu virus nəticəsində vəfat edib.

İraqda daha 6 nəfərdə yeni növ koronavirus pnevmoniyasına yoluxma halı qeydə alınıb. Yoluxanların hamısı təzəlikcə İrandan qayıdanlar olub.Yeni yoluxma halları ilə birlikdə İraqda koronavirusa yoluxanların ümumi sayı 18 nəfərə çatıb.

İtaliyada bugünə qədər koronavirusun yeni növünə yoluxanların sayı 1694 nəfərdir. Onlardan 80-dən çoxu sağalıb, 34-ü ölüb. Ölkənin Mülki Müdafiə Xidmətinin rəhbəri Ancelo Borrelli açıqlama verib ki, virusa yoluxmuş şəxslərin 9 faizi reanimasiya şöbələrindədir, təxminən 51 faizi evdə karantindədir, onlarda xəstəliyin ciddi əlamətləri yoxdur. İtaliyada koronavirus ən çox Lombardiya vilayətində qeydə alınıb. 50 mindən artıq insanın yaşadığı 10 şəhərdə karantin elan edilib. Bu şəhərlərin sakinlərinə ərazini tərk etmək qadağan olunub.

ABŞ-ın şimal-qərbindəki Vaşinqton ştatında koronavirusdan ikinci ölüm hadisəsi baş verib. Şənbə günü Vaşinqton ştatının Səhiyyə Departamenti ölkə ərazisində koronavirusdan birinci ölüm hadisəsi haqqında məlumat verib. Belə ki, ştatda 50 yaşlı kişi virusdan ölüb. Bundan sonra qubernator Cey İnsli koronavirusun yayılması və ölkədə qeydə alınmış ilk ölümlə əlaqədar ştat ərazisində fövqəladə vəziyyət elan edib.

Məlumata görə, ABŞ-ın Nyu York və Rod-Aylend ştatlarında da koronavirusa ilk yoluxma hadisələri qeydə alınıb. Mütəxəssislər koronavirusa yoluxmuş şəxslərdən biri ilə ünsiyyətdə olmuş 40 nəfəri müayinə edirlər.

Çexiyada ilk dəfə 3 nəfərin yeni tip koronavirusa yoluxduğu aşkarlanıb. Səhiyyə naziri Adam Voytex deyib ki, virusa yoluxanlardan ikisi Praqadakı “Na Bulovce” xəstəxanasına, bir nəfər isə Usti-nad-Labem şəhər xəstəxanasına yerləşdirilib. Koronavirusa yoluxanlardan biri İtaliyadakı universitetlərdən birində təcrübə keçdikdən sonra Praqaya qayıdandır. Praqada xəstəxanaya yerləşdirilən amerikalı qadın isə Milanda təhsil alıb. Usti-nad-Labem şəhər xəstəxanasına yerləşdirilən üçüncü şəxs isə İtaliyada kurortda istirahətdə olub.

Cənubi Koreyada koronavirusa yoluxmuş daha 4 nəfər ölüb, nəticədə ölkədə epidemiyadan ölənlərin sayı 26-ya çatıb. Rəsmi məlumata əsasən, Cənubi Koreyada koronavirus daşıyıcılarının sayı 4212 nəfərdir.

Küveytdə daha 10 nəfər koronavirusa yoluxub. Beləliklə, yoluxanların sayı 56 nəfərə çatıb.

İndoneziyada hələ ki 2 koronavirus daşıyıcısı aşkarlanıb.

Martın 1-nə qədər qonşu ölkə Gürcüstanda yeni koronavirusa üç yoluxma halı təsdiqlənib.

Ermənistanda 30-dan çox şəxs koronavirusa yoluxma şübhəsi ilə karantinə yerləşdirilib. Hələlik xəstəlik yalnız İrandan gələn 29 yaşlı Ermənistan vətəndaşında aşkarlanıb.

### Məktəb və universitetlərdə dərslər ləğv olunur

Koronavirusun yayılması müxtəlif ölkələrdə nəinki biznesə, iqtisadi əlaqələrə də zərər vurub, təhsil sahəsində çətinlik yaradıb. Dünyanı cənginə alan bu epidemiyanın qeydə alındığı bir çox ölkələrdə orta və ali təhsil müəssisələrində müvəqqəti tətil elan olunub, dərslər ləğv edilib.

Böyük Britaniya hökuməti Çeşir qraflığı və Norviç şəhərində dərslərin bağlanması barədə qərar verib. Buna səbəb İtaliyaya gəzintidən dönən şagirdlərdə koronavirus ehtimalının olmasıdır. Ölkədə 13 nəfər virusa yoluxsa da, onlardan 8-i sağalıb.

İranda şənbə günündən ölkədəki bütün məktəblər bir neçə günlük bağlanıb. Universitetlər isə 1 həftə müddətində fəaliyyətini dayandıracaq. Koronavirusun xüsusən tüğyan etdiyi Qum şəhərində 2 həftəlik karantin elan olunub.

Rumıniyada 1 nəfər yoluxucu xəstəliyə tutulsa da, ölkə rəhbərliyi Qərb regionunda yerləşən Kluj-Napoka, Arad, Timişoara və Tıqu Jiu şəhərlərində dərsləri ləğv edib.

İtaliyanın Lombardiya, Veneto, Emiliya-Romanya və Pyemont vilayətlərində universitetlər bağlanıb.

Yaponiyada COVİD-19 virusunun qarşısını almaq üçün ibtidai və orta məktəblər aprel ayına qədər bağlı qalacaq.

Küveytdə isə dərslər 2 həftəlik dayandırılıb. Ölkədə viruslu pasiyentlərin sayı 26-ya çatıb.

İraq hökuməti isə ölkədəki bütün təhsil müəssisələrini, o cümlədən universitetləri 10 gün ərzində bağlayıb. İraq Antiböhran Mərkəzi martın 7-nə qədər kinoteatr, qəhvəxana, əyləncə və ictimai obyektlərin bağlanması barədə elan verib.

Pakistanda fevralın 27-dən İranla həmsərhəd ərazilərdə məktəb və universitetlər, sənaye müəssisələri fəaliyyətlərini dayandırıblar.

İsrail də analoji addımı atıb. Ölkədə təhsil müəssisələri martın ortalarına qədər bağlı elan olunub.

Gürcüstanda koronavirusun yayılması təhlükəsinin qarşısının alınması məqsədilə məktəblərdə yaz tətili martın 9-da deyil, martın 2-dən başlayıb və ayın 16-dək davam edəcək. Martın 2-dən bütün uşaq bağçalarında da tətil elan olunub. Təhsil naziri Mixail Çxenkeli universitetlərə müraciət edərək semestr imtahanlarının vaxtının dəyişdirilməsi, bir qədər ertələnməsi ilə bağlı tövsiyə məktubu göndərib.

Azərbaycanda da təhsil müəssisələri bağlandı.

Dünən Nazirlər Kabinetinin yanında operativ qərargah Azərbaycanda da bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılmasına və bununla bağlı bütün tədbirlərin təxirə salınmasına dair qərar qəbul edib.

Qərargahdan verilən məlumata görə, koronavirus (COVİD - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər davam etdirilir. Yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi, ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə 2020-ci il mart ayının 3-dən 9-dək bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılmasına və bununla bağlı bütün tədbirlərin təxirə salınmasına dair qərar qəbul olunub. Bu müddət ərzində Təhsil Nazirliyinə və tabeliyində təhsil müəssisələri olan müvafiq icra hakimiyyəti orqanlarına bütün təhsil müəssisələrində tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlərin davam etdirilməsi tapşırılıb. İlk tədris günü mart ayının 10-u müəyyən edilib.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## “Azərbaycan və Gürcüstanda “Cənub qaz dəhlizi” ilə bağlı tikinti işləri tam başa çatıb”



“Azərbaycan və Gürcüstanda “Cənub qaz dəhlizi” (CQD) ilə bağlı tikinti işləri tam başa çatıb. Türkiyədə layihə ilə bağlı infrastruktur işləri yekunlaşdırılıb”. Bu sözləri Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava söyləyib.

Onun sözlərinə görə, bu layihə ilə bağlı əhəmiyyətli nailiyyətlər əldə olunub. “Cənub qaz dəhlizi” layihəsi yalnız iştirakçı ölkələr deyil, Avropa İttifaqı ölkələri tərəfindən də beynəlxalq səviyyədə tanınıb.

Nazir qeyd edib ki, TANAP və TAP layihələrinə qədər Gürcüstanın tranzit funksiyası yalnız regional səviyyədə olub. İndi isə Gürcüstan beynəlxalq oyunçu kimi çıxış edir.

“Cənub qaz dəhlizi”nin daha bir uğuru ondadır ki, bu cür beynəlxalq layihələrin həyata keçirilməsi dövlətlərin birgə səylərini daha da artırır”, - deyə Turnava vurğulayıb.

## DSMF-nin yeni Ərazi Məşğulluq Mərkəzi yaradılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) Xəzər və Pirallahı rayon şöbələrinin bazasında DSMF-nin 2 saylı Bakı ərazi şöbəsi və nazirliyin yanında Dövlət Məşğulluq Xidmətinin (DMX) Xəzər və Pirallahı rayon Məşğulluq mərkəzlərinin bazasında 2 saylı Bakı Ərazi Məşğulluq Mərkəzi yaradılıb.

Bu barədə nazirliyin yaydığı məlumatda bildirilir ki, ötən ilin dekabr ayında Xəzər rayonunda yaradılan 2 saylı DOST Mərkəzi Xəzər və Pirallahı rayon sakinlərinə əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələri üzrə 132 növdə xidmət göstərir. Bu amil nəzərə alınmaqla DSMF və DMX-nin həmin rayonlar üzrə qurumlarının bazasında 2 saylı Bakı ərazi şöbəsinin və 2 saylı Bakı Ərazi Məşğulluq Mərkəzinin yaradılması fondun və xidmətin strukturunun optimallaşdırılması və yerli qurumların səmərəliliyinin artırılması məqsədini daşıyır.

Hər iki rayon üzrə sosial-məişət xidmətlərinin göstərilməsini, unvanlı dövlət sosial yardımının alınması üçün müraciət etmiş ailələrin maddi-məişət şəraitinin müayinəsini 2 saylı DOST mərkəzi həyata keçirəcək.

DSMF-nin 2 saylı Bakı ərazi şöbəsi isə DOST mərkəzləri ilə əlaqəli işləyəcək. Həmin mərkəzlərdən daxil olan sənədlər və məlumatlar əsasında qanunvericiliyə uyğun sosial təminat növlərinin təyinatı və ödənişini yerinə yetirəcək. Bu məsələlərlə bağlı həmin mərkəzlərdən daxil olan müraciətlərə operativ baxılması və həll edilməsi işləri, sosial müdafiə və təminat sahəsində digər tədbirləri görəcək.

Həmçinin Xəzər və Pirallahı rayonları üzrə özünüməşğulluq proqramına cəlb edilməkdən ötrü müraciət edən işsiz şəxslərin özünüməşğulluq fəaliyyəti üçün şəraitlərinin qiymətləndirilməsini, bu proqram çərçivəsində aktivlər verilmiş şəxslərin fəaliyyətlərinin monitorinqini 2 saylı DOST Mərkəzi aparacaq. 2 saylı Bakı Ərazi Məşğulluq Mərkəzi isə DOST mərkəzləri ilə əlaqəli fəaliyyət müstəvisində aktiv məşğulluq, habelə işaxtaran və işsiz şəxslərin sosial müdafiəsi ilə bağlı tədbirlərin təşkili, DOST mərkəzlərindən daxil olan müraciətlərə operativ baxılması, həll edilməsi, ərazi məşğulluq proqramlarının hazırlanması və s. sahələrdə işləri görəcək.

## Bir həftədə 126 fermer təlimlərə cəlb olunub



Aqrar Elm və İnnovasiya Mərkəzi tərəfindən müəyyən olunmuş təlim proqramına uyğun ötən həftə fermerlərin maarifləndirilməsi ilə bağlı tədbirlər keçirilib.

Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu tərəfindən Goranboy rayonundakı fermer təsərrüfatında keçirilmiş təlimdə 25, Əkinçilik Elmi-Tədqiqat İnstitutu tərəfindən Kürdəmir Dövlət Aqrar İnkişaf Mərkəzində (DAİM) təlimdə 17, Ucar DAİM-də təlimdə 23, Qobustan rayonunda tarla şəraitində baş tutmuş təlimdə 28, Şamaxı DAİM-də təlimdə isə 15 fermer iştirak edib.

Həftə ərzində Beyləqan Regional Aqrar Elm və İnnovasiya Mərkəzi tərəfindən torpaq mülkiyyətçiləri əhatə edən təlimə 13, Aqrar Xidmətlər Agentliyi tərəfindən isə Salyanda təsərrüfat şəraitində keçirilmiş təlimə 12 nəfər qatılıb. Ümumilikdə, həftə ərzində keçirilmiş 7 təlimə 126 fermer cəlb olunub.

Fermerlərə quşçuluqda yumurtalıq istiqamətli cücələrin bəslənmə texnologiyası, quşçuluq binalarında mikroiqlimin tənzimlənməsi qaydaları, taxıl əkinlərində zərərvericilərə və siçanabənzər gəmiricilərə qarşı mübarizə tədbirləri, təhlükəsizlik qaydalarına əməl olunması, sahənin bitki qalıqlarından təmizlənməsi, dondurma şumunun aparılması, torpağın arata hazırlanması, alaq otlarına qarşı mübarizə tədbirləri, iribuynuzlu heyvandarlıqda dabaq və qarayara xəstəliklərinin profilaktikası haqqında məlumatlar verilib.

# İlham Əliyevin təşəbbüsü ilə reallaşan “Cənub qaz dəhlizi” bütün iştirakçı ölkələrin davamlı inkişafına xidmət edəcək

### Məşvərət Şurasının VI toplantısı diqqəti layihənin sonuncu seqmentinin - TAP-ın uğurla tamamlanmasına yönəltdi




*Əvvəli 1-ci səh.*

Düşünürəm ki, “Şahdəniz-2” yatağından hasil edilən qazın ilin sonunadək Avropa İttifaqına - İtaliyaya qədər nəqli ilə bağlı sadə fakt bizim hamımız üçün fantastik nailiyyət olacaq”.

TAP-ın əhəmiyyəti həm də ondadır ki, bu kəmər “Cənub qaz dəhlizi”ni Cənub-Şərqi Avropa və Balkanlarda planlaşdırılan Yunanıstan-Bolqarıstan İnterkonnektoru (İGB), İon-Adriatik Qaz Kəməri (İAP), eləcə də Rumıniya-Bolqarıstan, BRUA (Bolqarıstan, Rumıniya, Macarıstan, Avstriya) ilə əlaqələndirəcək. Nəticədə Bolqarıstan, Xorvatiya, Monteneqro, Bosniya və Herseqovina və Avropanın bir sıra digər ölkələri üçün geniş perspektivlər açacaq və bölgəyə yeni təchizat mənbələrindən yararlanmaq imkanı verəcək.

Beləliklə, indi əsas diqqət sonuncu seqmentin - TAP-ın üzərində cəmləşib. Odur ki, Məşvərət Şurasının toplantısında bu kəmərin çəkilişində son işlərin vəziyyəti ətraflı təhlil olunub.

TAP-ın icraçı direktoru Luca Schieppati bildirib ki, kəmərin inşası üzrə hər gün yüzlərlə metr ərazi təmizlənir, borular marşrut xətti boyunca düzülür və xəndəyə endirilir. Qazılmış sahələr torpaq örtüyü ilə bərpa olunur. Biri Yunanıstanın Kipoi, digəri isə Albaniyanın Fier məntəqəsində olmaqla iki kompressor stansiyasının inşası yekunlaşıb.

Məşvərət Şurası eləcə də perspektivdə dayanan işlərə toxunub. TAP layihəsində 20 faizlik paya malik olan “Snam” (İtaliya) şirkətinin beynəlxalq əlaqələr və biznesin inkişafı üzrə direktoru Alessandra Pasini bildirib ki, kəməri “Snam Pete” qaz şəbəkəsinə birləşdirmək üçün 55 kilometrlik interkonnektorun çəkilişi planlaşdırılır.

İGB-nin operatoru olan “İCGB AD” şirkətinin icraçı direktoru Teodora Geoergiyeva diqqətə çatdırıb ki, Yunanıstan-Bolqarıstan İnterkonnektoru Avropa İttifaqında enerji bazarının təhlükəsizliyi üzrə prioritet daşıyan layihələrdən biridir. Həmin xəttin vasitəsilə Bolqarıstana 1 milyard kubmetr Azərbaycan qazı nəql olunacaq.

Məşvərət Şurası bir daha vurğulayıb ki, Azərbaycan böyük coğrafiyanı əhatə edən bu qlobal təşəbbüsünü beynəlxalq dəstəklə başa çatdırmaqdadır. “Cənub qaz dəhlizi” bütün tərəflərin maraqlarının təmin olunmasına və qlobal əməkdaşlıq mühitinin yaradılmasına əsaslanan məqsədə yönəldilib. TAP-ın, nəticə etibarilə “Cənub qaz dəhlizi”nin nəzərdə tutulduğu vaxtda, yəni bu ilin sonunadək başa çatdırılması mühüm əhəmiyyət daşıyır. Yeddi ölkənin, çoxsaylı şirkətlərin və digər qurumların əməkdaşlıq formatı layihənin uğurla tamamlanmasına imkan verəcək, “Cənub qaz dəhlizi” bütün iştirakçı ölkələrin davamlı inkişafına, onların qarşılıqlı münasibətlərinin möhkəmlənməsinə xidmət edəcək.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Bu il magistral və respublika əhəmiyyətli daha 2 yolun tikintisi yekunlaşacaq

**Prezidentin M5 Yevlax-Zaqatala-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun Xaldan-Şəki hissəsinin əsaslı şəkildə yenidən qurulması ilə bağlı tapşırıq və sərəncamlarına əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi sözügedən ərazidə təmir-tikinti işlərini davam etdirir.**

Agentliyin yaydığı məlumata görə, M5 magistralının yenidən qurulan hissəsinin uzunluğu 46 km-dir. Eni 15 metr olan yolun bu hissəsi II texniki dərəcəyə uyğun olaraq yenidən qurulur.

Layihə çərçivəsində köhnə asfalt-beton örtüyünün üst qatı frezlənərək kənara daşınıb, yolun köhnə və yararsız quruntu qazılaraq çıxarılıb, əvəzinə yararlı material tökülərək kipləşdirmə və qaya dolğusu işləri aparılmaqla yeni yol yatağı inşa olunub. Torpaq işlərinin ardınca yol əsasının inşasına başlanılıb. Yol optimal qırmadaş və qum-çınqıl qarışıqlarından istifadə olunmaqla inşa olunur. Buna paralel olaraq yol əsası hazır olan hissələrə ələqələndirici bitum səpilməklə yeni asfalt-beton örtüyü də döşənir. Eyni zamanda yolboyu 3 avtomobil körpüsünün inşası aparılaraq yekunlaşdırılır.

“M-5 Yevlax-Zaqatala-Gürcüstan Respublikası dövlət sərhədi avtomobil yolunun yenidənqurulması” layihəsi çərçivəsində magistralın 46-cı km-dən ayrılan və Şəki şəhərinədək uzanan 12 km-lik respublika əhəmiyyətli yol da III texniki dərəcəyə uyğun yenidən qurulur. 2 hərəkət zolaqlı olmaqla yolun eni 12 metrdir. Analoji tikinti işləri bu yolda da görülür. Respublika əhəmiyyətli bu yolda da 5 avtomobil körpüsünün inşası bitmək üzrədir.

Qeyd edək ki, M5 Yevlax-Zaqatala-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolu ölkənin şimal-qərb istiqamətindən Mazımçay üzərindən keçməklə Gürcüstan sərhədinə doğru istiqamətlənən və ölkənin ümumi yollar şəbəkəsində xüsusi əhəmiyyəti olan 164 km uzunluğa malik II dərəcəli magistral avtomobil yoludur.

Əsaslı şəkildə yenidən qurulan Yevlax-Zaqatala-Gürcüstan avtomobil yolunun (M5) tərkib hissəsinə aid olan Xaldan-Şəki hissəsi isə 2 rayonun inzibati ərazisindən keçməklə bir neçə yaşayış məntəqəsini birləşdirir. Aparılan işlər yolboyu yaşayan əhali ilə yanaşı, yoldan istifadə edən bütün vətəndaşların gediş-gəlişini rahatlaşdıracaq, Gürcüstan həmçinin əks istiqamətdə yük və sərnişin daşımasını xeyli asanlaşdırmaqla kənd təsərrüfatının və turizmin inkişafına müsbət təsir edəcək.

Xatırladaq ki, ötən il sözügedən magistralın 40 kilometrlik Zaqatala-Balakən-Mazımçay hissəsi əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdi.

*Əvvəli 1-ci səh.*

Bu baxımdan qida təhlükəsizliyi hər bir ölkədə strateji əhəmiyyətli problemə çevrilib. Nəzərə alsaq ki, qida təhlükəsizliyi cəmiyyətin inkişafında, sağlam nəslin yetişməsində, həmçinin milli genefondun qorunmasında xüsusi rol oynayır, onda bu problemin ciddiliyi daha aydın olar. Vəziyyəti gərginləşdirən həm də bu gün dünyada gedən qloballaşma və o üzdən qida mənşəli xəstəliklərin sürətlə yayılmasıdır.

Odur ki, indi bütün dünyada qida təhlükəsizliyinin təminatı istiqamətində dövlətlər və regional təşkilatlar ciddi iş aparırlar. Hətta qida məhsulları iştirakçılarını bütün mövcud risklər barədə obyektiv və elmi cəhətdən əsaslandırılmış şəkildə məlumatlandırmaq məqsədilə 2002-ci ildə Avropa Qida Təhlükəsizliyi Təşkilatı (EFSA) təsis edilmişdir.

Azərbaycana gəldikdə, ölkəmizdə bu məsələ ilə əlaqədar Prezident İlham Əliyevin 2001-ci il 2 mart tarixli sərəncamı ilə 2001-2010-cu illəri əhatə edən “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı”, 2008-ci il 25 avqust tarixli sərəncamı ilə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, 2016-cı il 6 dekabr tarixli fərmanı ilə “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” təsdiq edilmiş, həmçinin digər sənədlər qəbul olunmuşdur. Bunlardan əlavə və ən əsası ölkədə qida təhlükəsizliyinə nəzarət sistemini təkmilləşdirmək, sözügedən sahədə şəffaflığı artırmaq, pərakəndəliyi və təkrarlanmaları aradan qaldırmaq, habelə “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə nəzərdə tutulmuş müvafiq tədbirlərin həyata keçirilməsini təmin etmək üçün Prezidentin 2017-ci il 10 fevral tarixli fərmanı ilə Qida Təhlükəsizliyi Agentliyi yaradılmışdır.



# Ərzaq təhlükəsizliyinin əsas şərti yerli istehsalı artırmaqdır

### Ölkəmizdə bu istiqamətdə əməli tədbirlər həyata keçirilir

Qeyd edək ki, bu agentlik yaradılanacan həmin sahədə mövcud problemlərin həlli ilə məşğul olan vahid idarəetmə mərkəzi yox idi və bu iş müxtəlif dövlət orqanları və qurumlarının öhdəsinə buraxılmışdı. Bu isə qida təhlükəsizliyinə nəzarət və dövlət tənzimləməsi sahələrində paralellik və təkrarçılıq hallarına səbəb olurdu. Üstəlik əvvəl qida təhlükəsizliyinin təmin olunması baxımından yekun məhsulun sertifikatlaşması tələb edilirdi və dövlət nəzarəti zamanı əsasən sertifikatın mövcudluğuna diqqət yetirilirdi. Həmin tədbirlər isə mövcud risklərə əsaslanmırdı və tətbiq olunan milli standartların əksəriyyəti beynəlxalq tələblərə cavab vermirdi. Nəticədə əlavə tədbirlərin görülməsinə ehtiyac yaranırdı.

Bununla belə, bu gün dünyada ərzaq təhlükəsizliyinin təminatında ən düzgün və optimal yolun daxili tələbatın yerli istehsal hesabına ödənilməsi olduğunu heç kim danmır. Yalnız bu yolla keyfiyyətsiz və müxtəlif xəstəliklər törədə biləcək qida məhsullarının yerli bazara daxil olmasının qarşısını almaq mümkündür.

Ölkəmizdə də bu səbəbdən kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün tədbirlər görülür və onlar nəticəsiz qalmır. Rəqəmlərə nəzər salaq: Azərbaycanda əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi ət və ət məhsulları üzrə 82,7, yumurta üzrə 101,5, süd və süd məhsulları üzrə 86,7, balıq və balıq məhsulları üzrə 87,8, kartof üzrə 92,5, tərəvəz üzrə 113,8, bostan məhsulları üzrə 99,7, meyvə və giləmeyvə üzrə 123,1, şəkər üzrə 81,2, un üzrə 95,9, meyvə və tərəvəz konservləri üzrə 91,7, kərə yağı üzrə 71,1, marqarin üzrə 98,8, duz üzrə 103,1 faizdir. Bunlar 2018-ci ilə aid olan son göstəricilərdir. Üstündən bir il keçəndən sonra - 2019-cu ilə aid rəqəmlərin isə daha üstün olacağı şübhəsizdir. Çünki aqrar islahatların dərinləşməsi, fermerlərə dövlət dəstəyinin artırılması sayəsində ildən-ilə ölkə üzrə həm məhsul istehsalı, həm də ixracı artır. Belə ki, ötən il kənd təsərrüfatında barama istehsalı 25, pambıq - 26, yumurta - 9, günəbaxan - 43, kartof - 12, tərəvəz - 12, bostan məhsulları - 11, meyvə və giləmeyvə - 9, yaşıl çay yarpağı - 7, üzüm - 20 faiz artmışdır. İxraca gəldikdə, təkcə keçən il tərəvəzçilikdə ixracın dəyəri 243 milyon dollar olmuşdur.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, ötən ilin yanvar-dekabr ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 7 milyard 836,7 milyon manat təşkil etmişdir ki, bunun da 4 milyard 85,5 milyon manatı heyvandarlıq, 3 milyard 751,2 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb. Ümumilikdə, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 7,2, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,5, bitkiçilik məhsulları üzrə 11,7 faiz artmışdır.

Sözsüz ki, bu artımların əsas mənbəyi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün aqrar sektorda həyata keçirilən islahatlar və fermerlərə verilən dəstəkdir. Bu yolla həm ərzaq təhlükəsizliyi təmin olunur, həm də ölkənin ixrac potensialı artır.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## Argentinanın Azərbaycandakı səfiri Pirallahı Sənaye Parkında olmuşdur

Argentinanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunella və səfirliyin bir qrup əməkdaşı Pirallahı Sənaye Parkında olub.

Qonaqlar üçün sənaye parklarının fəaliyyətini əks etdirən təqdimat keçirilmiş, ölkədə fəaliyyət göstərən sənaye parkları, burada sahibkarlar üçün yaradılan əlverişli şərait, rezidentlər üçün tətbiq edilən güzəşt mexanizmləri və göstərilən xidmətlər barədə məlumat verilmişdir.

Səfir və səfirliyin əməkdaşları Pirallahı Sənaye Parkında görülən işlər, parkın rezidenti “R-Pharm” MMC-nin istehsal prosesi ilə tanış olmuşlar.

## Bu il bir sıra ölkələrdə Azərbaycan Ticarət evlərinin açılışı planlaşdırılır

### İlin sonunadək daha 4 ölkəyə ixrac missiyaları həyata keçiriləcək




**Cari ildə Rusiya Federasiyası və Körfəz ölkələrində Azərbaycan Ticarət evlərinin açılması nəzərdə tutulur. Hazırda təkliflər nəzərdən keçirilir.**

Bu barədə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev martın 2-də keçirdiyi mətbuat konfransında deyib. Xatırladaq ki, Azərbaycanın ilk Ticarət Evi 2017-ci ildə Minskdə açılmışdır.

Y.Abdullayev həmçinin bildirb ki, cari ilin sonuna kimi Azərbaycandan Rusiya, Çin, Litva və Xorvatiyaya ixrac missiyalarının təşkili planlaşdırılır. Qeyd edib ki, bu ilin martında Çinə həyata keçirilməsi nəzərdə tutulan ixrac missiyası hələlik təxirə salınıb.

Ötən il sahibkarlara 8 milyon 809 min manat ixrac təşviqi ödənildiyini deyən Y.Abdullayev onu da qeyd edib ki, bunun əvəzində ixrac olunan məhsulların dəyəri 150 milyon dollar olub.

# Subsidiyaların mərhələli şəkildə “Fermer kartları”na köçürülməsinə başlanılıb

**Cari il üçün payızlıq əkinlərə görə müəyyən olunmuş subsidiyaların mərhələli şəkildə “Fermer kartlar”ına köçürülməsinə başlanıb. Bu günədək 30603 fermerin bank kartlarına ümumilikdə 10 milyon 565 min manat subsidiya məbləği köçürülüb.**



Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, subsidiya vəsaitlərinin kartlara yüklənməsi ilə bağlı xüsusi sayt vasitəsilə fermerlərin mobil nömrələrinə “Bəyan etdiyiniz əkin üzrə 2020-ci il əkin subsidiya məbləği hesabınıza köçürülüb, istifadə qaydaları ilə bağlı elektron kabinetinizə göndərilmiş bildirişdə tanış ola bilərsiniz” yazılmış xəbərdalıq mesajı göndərilir.

Fermerlərin Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində yaratdıqları şəxsi kabinetə göndərilmiş bildirişdə subsidiyanın hesablanması, məbləğdən istifadə təlimatları yer alır. Təlimatda qeyd olunur ki, “Hesabınıza köçürülən əkin subsidiyası sizə əkin altında olan kənd təsərrüfatı yerlərində həmin yerlərin təyinatına uyğun kənd təsərrüfatı istehsal vasitələrinin (gübrə, biohumus, ting, pestisid) alınmasına sərf olunan xərclərinin bir hissəsini kompensasiya etmək məqsədilə verilir. Məbləğ bitki becərilən sahənin hər hektarına görə 200 manat baza məbləği bitki əmsalına vurulmaqla hesablanıb və sizin elektron ərizəniz təsdiqlənib. Siz əkin subsidiyası məbləğinin 25 faizini nağdlaşdıraraq (bank terminalından çəkməklə) digər istehsal xərcləriniz üçün, 75 faizini isə istehsal vasitələri satan təchizatçılarının post-terminalları vasitəsilə gübrə, toxum, ting, pestisid almaq üçün istifadə edə bilərsiniz. Gübrə və biohumus alışı zamanı sizin alacağınız gübrə və biohumusun 30 faizini öz hesabınıza, 70 faizini isə əkin subsidiyası hesabına ödəyirsiniz”.

Qeyd edək ki, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) qeydiyyatdan keçmiş fermerlərin payızlıq əkin məlumatlarının yoxlanılması prosesi başa çatmaq üzrədir. Yeni subsidiya mexanizminin tətbiqi ilə əlaqədar kənd təsərrüfatı məhsulları istehsalçılarına “Fermer kartı”nın verilməsi prosesi davam edir. Artıq 179209 “Fermer kartı” hazırlanaraq fermerlərə paylanılması üçün bölgələrə göndərilib. Bu günədək 60 mindən çox fermer “Kapitalbank”ın yerli filiallarına müraciət edərək “Fermer kartı” əldə ediblər. Kartların paylanılması prosesinin qısa müddətdə başa çatdırılması nəzərdə tutulur.

Xatırladaq ki, hazırda EKTİS-də 472 min fermer qeydiyyatdan keçərək özlərinə şəxsi kabinet yaradıblar. Fermerlərin bitkiçilik sahəsində fəaliyyətə görə alacaqları subsidiyalara əsas təşkil edən torpaq sənədləri və payızlıq əkinləri barədə bəyanları sistemə daxil edilib.

# İllərdə qalan izlər

**İnsanların uşaqlıq, cavanlıq, ahıllıq, qocalıq dövrləri olduğu kimi, illərin də fəsilləri var. Deyirlər, insan həyatdan köçdükdən sonra onu üç əsas yadigarı yaşadır: yaxşı əməli, yaxşı əsəri, bir də yaxşı övladı. İllər isə insanların yaddaşında baş verən mühüm, əlamətdar hadisələrlə qalır, tarixə düşür, dillərdə gəzir, yaddaşlarda yaşayır, nəsildən-nəslə ötürülür. İllər öncə yazdığım bir şeirimdə belə demişdim:**

*İllər də insantək gəlir dünyaya,*
*İllər də insantək qocalıb gedir.*
*İllər var zəfəri gəlməyir saya,*
*İl də var dünyadan borc alıb gedir.*

Bu mənada insan və zaman, təbiət və cəmiyyət həmahəngdir, onlar biri-birini tamamlayır, mənalandırır. Xoşbəxt o kəsdir ki, Tanrının ona bəxş etdiyi ömür payını mənalı, məramlı yaşayır. Ötüb-keçən anın, günün bir daha geri dönməyəcəyini, təkrar olunmayacağını dərk edərək çalışır, qurub yaradır. Gördüyü işlərə nəzər salanda onlara baxıb sevinir, qürur hissi keçirir.

İlləri uğurla, zəfərlə yola salmaq Azərbaycanda ənənə halını almışdır. Bu da 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin dünyanın böyük dövlətlərinin, nəhəng şirkətlərinin rəhbərlərini Bakıda bir araya gətirməsi, "Əsrin müqaviləsi" adlanan neft kontraktının imzalanmasının nəticəsində mümkün olmuşdur. Bu müqavilə 2003-cü ilin sonlarından etibarən öz bəhrəsini verməyə başladı. Onu da qeyd edək ki, bu nəhəng layihənin reallaşmasına xaricdən və daxildən nə qədər təzyiqlər olsa da, Heydər Əliyevin uzaqgörənliyi, qətiyyətli siyasəti və polad iradəsi qarşısında həmin cəhdlər qar kimi əriyib yox oldu. Ulu Öndər Azərbaycanın inkişafı yolundakı bütün cəhdləri dəf edərək sonrakı mərhələdə mühüm islahatları həyata keçirdi. Zamanında dediyi "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" sözləri xalq arasında zərb-məsələ çevrildi.

2003-cü ildə İlham Əliyev Prezident seçildiyi andan siyasi varislik missiyasını üzərinə götürərək düzgün təməl üzərində işləri davam etdirdi, neftdən gələn gəlirləri ən mühüm, ən vacib məsələlərin həllinə yönəltdi. Bunlar əsasən iqtisadiyyatı dirçəltmək, ölkənin müdafiə qabiliyyətini gücləndirmək, ordunu müasir silah və sursatlarla təchiz etmək, öz dədə-baba torpaqlarından didərgin düşən soydaşlarımızın həyat şəraitini yaxşılaşdırmaq, onları qamışdan, çiy kərpicdən tikilmiş daxmalardan, yayda istidən yanan, qışda soyuqdan donan dəmir vaqonlardan çıxarmaqdan ibarət idi. Eyni zamanda regionlarda yığılıb qalmış, illərlə bir-birinin üstünə qalaqlanmış problemləri aradan qaldırmağa başladı.

Biləsuvar-Bəhrəmtəpə şose yolunun 4-cü kilometrliyində Cəbrayıl rayonundan olan məcburi köçkünlər üçün 4 min 456 evdən, 11 qəsəbədən ibarət hər cür infrastrukturu olan şəhərcik salındı. Ardınca Bakı ətrafında, Sumqayıtda, habelə digər rayonların ərazilərində onlarca belə şəhərciklər tikildi. Keçən ilin sonunda uşaq bağçası, tibb məntəqəsi, poçtu, su xətti, işığı, rahat yolu olan daha bir yaşayış sahəsi Şirvan şəhərində məskunlaşan qaçqınlar üçün tikilib istifadəyə verildi. Cari ilin sonunadək daha çox sayda qaçqın və məcburi köçkün soydaşlarımız yeni mənzillərə köçürüləcək. Böyük Vətən müharibəsi, Qarabağ müharibəsi əlillərinin və şəhidlərinin, 20 Yanvar faciəsi qurbanlarının və əlillərinin, Çernobıl qəzası və Əfqanıstan müharibəsi iştirakçılarının özləri və ailələri də daim dövlətimizin diqqət mərkəzindədir. Onların həyat şəraitinin yaxşılaşdırılması, pensiya və müavinətlərinin artırılması, müalicəsi, reabilitasiyası ilə bağlı ardıcıl tədbirlər görülür.

Heç kəsə sirr deyil ki, Dağlıq Qarabağ münaqişəsi başlayanda bizim formalaşmış ordumuz yox idi. Ermənilər isə havadarlarının köməyi ilə bizdən qat-qat irəlidə idilər. Müttəfiqləri onlara silah-sursat və canlı qüvvə sarıdan yaxından kömək göstərirdilər. O vaxt, demək olar ki, Azərbaycana qardaş Türkiyədən başqa heç bir dövlət dəstək vermir, yaxasını kənara çəkirdi. Bizi istəməyən qüvvələr çalışırdılar ki, müstəqil Azərbaycan 1918-ci ildəki taleyini yenidən yaşasın, gənc dövlətimiz beşikdəcə boğulsun.

Amma onların bəd niyyətləri ürəklərində qaldı. 1993-cü il iyun ayının 15-də xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin böyük siyasəti, polad iradəsi, gərgin əməyi sayəsində bütün işlər addım-addım yoluna qoyuldu. Cəbhədə atəşkəs elan edildi, ölkə daxilində sabitlik yaradıldı, xarici ölkələrlə diplomatik əlaqələr genişləndirildi. Yüksək hazırlıqlı ordumuz yarandı və 2016-cı ilin aprel ayındakı döyüş zamanı nəyə qadir olduğunu göstərdi.

Regionlardakı vəziyyət də dövləti qane etmirdi. Sovet dövründə nə tikilib-qurulmuşdusa, hamısı tarmar edilmişdi. Onu da qeyd etmək lazımdır ki, belə dağıntı, söküntü M.Qorbaçovun SSRİ-də hakimiyyətə gəlməsindən sonra başlamışdı. Təkcə bir faktı xatırladaq. Alkoqolizmin ləğv edilməsi ilə əlaqədar verilən qərar o zaman sovetlər məkanında, eləcə də respublikamızda, xüsusən Cəlilabad rayonunda minlərlə hektar üzüm bağlarının, onlarca şərab zavodunun məhvinə səbəb oldu. İnsanlar iş yerlərini itirdilər, gəlirləri kəsildiyindən ehtiyac içində yaşamağa başladılar. Digər sahələr də bunun kimi. Astarada, Lənkəranda, Masallıda sitrus meyvə bağları, tərəvəz sahələri buraxıldı, çay plantasiyaları otlaq sahəsinə çevrildi.

Ümumiyyətlə, 1990-cı illərdə respublikamız, sözün həqiqi mənasında, tənəzzül dövrünü yaşayırdı. Zavod-fabriklər, tikinti təşkilatları öz fəaliyyətlərini dayandırmışdılar. Ölkənin hər yerində çörək qıtlığı yaranmışdı. Yollar bərbad hala düşdüyündən Bakıya, digər yerlərə gedib-gəlmək müşkülə çevrilmişdi. Günün yalnız bir neçə saatı ərzində əhaliyə elektrik enerjisi verilirdi. Nəticədə evlərdə elektrik-məişət avadanlıqları da sıradan çıxmışdı. Normal təbii qazdan, içməli su təchizatından isə söhbət gedə bilməzdi. Bir sözlə, region əhalisi ümidsizliyə qapanmışdı.

Deyirlər, ən ədalətli hakim zamandır. Onu da görmüşük ki, ən çətin vaxtlarda böyük Yaradanın nəzərləri həmişə Vətənimizin, xalqımızın üstündə olub. Ulu Öndər Heydər Əliyev ölkəmizi məhv olmaq, dünya xəritəsindən silinmək təhlükəsindən xilas etdi, geniş islahatlar həyata keçirdi, ordumuzu yaratdı - bir sözlə, ömrünü Vətənimiz naminə şam kimi əritdi. Qədirbilən xalqımız Heydər Əliyevin başladığı işləri kimin davam etdirməyə qadir olduğunu yaxşı bilirdi. Bu işləri xalq İlham Əliyevə etibar etdi. İlham Əliyev ölkə rəhbəri seçildikdən sonra 2004-cü il fevral ayının 11-də imzaladığı regionların sosial-iqtisadi inkişafına dair I Dövlət Proqramı dönüş nöqtəsinə çevrildi. Bu proqram çərçivəsində regionlarda həlli vacib olan məsələlər icra olundu.

Astara rayonu ərazisində inşa olunan 90 meqavoltluq modul tipli elektrik stansiyası və qaz-kompressor qurğusu nəinki Astaranın, bütövlükdə cənub bölgəsinin elektrik enerjisi, habelə təbii qaz təchizatında mühüm rol oynadı. Proqramda nəzərdə tutulan tədbirlərin icrası nəticəsində tikinti-quruculuq, abadlıq işləri geniş vüsət aldı. Onların ilkləri sırasında ucqar dağ rayonları olan Lerik və Yardımlı yollarının yenidən qurulmasını göstərmək olar. 2008-ci ilin payız günlərində bu rayonların tarixində o vaxta qədər görünməmiş hadisə baş verdi. Həmin rayonların mərkəzlərinə - şəhər statusu almış Lerik və Yardımlıya təbii qaz verildi. Bu, əsl bayrama, el şənliyinə çevrildi. O vaxt ən ucqar kəndlərin sakinləri təntənəni görmək üçün Prezidentin də iştirak etdiyi açılış mərasiminə gəlmişdilər.

Cənub bölgəsinin qeyri-rəsmi paytaxtı sayılan Lənkəranda, ölkəmizin cənub qapısı olan Astarada, habelə Masallıda, Cəlilabadda, Biləsuvarda, Salyanda, Neftçalada və digər rayonlarımızda da qaynar quruculuq işləri başladı. Hər ay, hər il bir-birinin ardınca yeni sənaye müəssisələri, yaşayış evləri, ictimai binalar tikilib istifadəyə verildi. Onların sıralarında məktəblər, təhsil müəssisələri mühüm yer tuturdu. Səbəbi aydın idi. Ulu Öndər "Təhsil millətin gələcəyidir" kəlamını əbəs yerə deməmişdir. Yaxşı təhsil sabahın vətəndaşını, savadlı, bilikli, istedadlı kadrlarını yetişdirir. Məktəblərin tikintisi regional inkişaf proqramlarında prioritet sahə kimi götürüldü. İndiyə kimi respublikamızda 1600-dən çox yeni məktəb binaları tikilmiş, köhnələri əsaslı təmir olunmuşdur. Bu sahədə Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Müasir üslubda inşa edilən həmin məktəblər hər cür inventarlar və avadanlıqlarla təchiz edilmişdir.

Ötən zaman kəsiyində ölkəmizdə həmçinin 650-dən çox səhiyyə ocağı tikilmişdir. Hər biri də yüksək zövqlə, keyfiyyətlə, Avropa standartları səviyyəsində. Tikilən, əsaslı surətdə təmir edilən rayon mərkəzi xəstəxanaları, tibb məntəqələri müasir avadanlıq və cihazlarla təchiz edilmişdir. İndi ölkəmizin əksər rayonlarında Müalicə Diaqnostika mərkəzi fəaliyyət göstərir. Yeri gəlmişkən, qeyd edək ki, rayonlar üzrə ilk dəfə 3 nəfər üzərində açıq ürək əməliyyatı 14 il öncə Lənkəran Müalicə Diaqnostika Mərkəzində aparılmışdır.

İndi Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır. Bakı ardıcıl olaraq beynəlxalq idman yarışlarına evsahibliyi edir. 2015-ci ildə I Avropa Oyunlarının Bakıda keçirilməsi Azərbaycanı dünyaya bir daha idman ölkəsi kimi təqdim etdi. 50 ölkənin iştirak etdiyi yarışlarda Azərbaycan 23 medal qazanaraq 2-ci yerə sahib oldu. Bu tədbir, qazanılan parlaq qələbə bir vətəndaş kimi mənim də ürəyimi qürur hissi ilə döyündürdü:

*...Bakı qucaq açdı əlli ölkəyə,*
*Mehriban-mehriban köksünə sıxdı.*
*Dedi: "Xoş gəlmisiz Azərbaycana!"*
*Hamı bu gəlişin seyrinə çıxdı.*

*...Sağ olsun yaradan, quran əməllər,*
*Gör necə yüksəldik, necə dəyişdik!*
*Dünya heyran oldu belə büsata,*
*Biz belə təntənə heç görməmişdik!*

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan ikinci və üçüncü dövlət proqramları çərçivəsində mövcud problemlər mərhələli şəkildə öz həllini tapdı. İş yerlərinin açılması üçün müxtəlif sahələri əhatə edən yeni müəssisələr, istehsalat sahələri yaradıldı. Azərbaycan brendi kimi şöhrət qazanan "ASAN xidmət"lər əhalinin işini xeyli asanlaşdırdı. Bundan əlavə, əhalini keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün müasir elektrik stansiyaları, yarımstansiyalar tikildi. İcra olunan layihələr nəticəsində ölkədə qazlaşma 96 faizə çatdı. Bəzi rayonlarımızda isə bu rəqəm daha yüksəkdir. Məsələn, Biləsuvar rayonunda qazlaşma tam başa çatıb.

İçməli su ilə bağlı silsilə tədbirlər bu gün də davam etdirilir. Kanalizasiya sisteminin çəkilişi və təmiri işləri paralel aparılır. Bu və digər işlər hesabına şəhər, qəsəbə və kəndlərimiz simasını dəyişib ildən-ilə abadlaşır, gözəlləşir. Salınan parklar, xiyabanlar bu gözəlliyə rəng qatır.

Davos Ümumdünya İqtisadi Forumunun hesabatları da sübut edir ki, Azərbaycan iqtisadiyyatı yüksək templə irəliləməkdədir. Bu da səbəbsiz deyil. Görülən işlərin, həyata keçirilən layihələrin hər birinin düşünülmüş planı və elmi əsasları var. Neftdən asılılığı azaltmaq, iqtisadiyyatı şaxələndirmək, xaricə gedən valyuta axınının qarşısını almaq, rəqabətədavamlı, ixracyönümlü məhsullar istehsal etmək, əhalini ekoloji cəhətdən təmiz, keyfiyyətli ərzaqla təmin etmək, yeni iş yerləri yaratmaq, digər bu kimi mühüm məsələlər ölkədə aparılan iqtisadi siyasətin başlıca istiqamətləridir. Son illər bu sahələrin hər birində qazanılan uğurlar göz qabağındadır. Meyvəçilik, çayçılıq, baramaçılıq, çəltikçilik, pambıqçılıq, heyvandarlıq sahəsində məhsuldarlıq ildən-ilə artır. Görülən tədbirlər deməyə əsas verir ki, yaxın gələcəkdə ölkəmiz nəinki əsas ərzaq məhsulları sarıdan idxaldan azad olacaq, hətta biz böyük ixracatçıya çevriləcəyik.

Ayrı-ayrı sahələrdə, o cümlədən pambıqçılıqda keçmiş şöhrət geri qaytarılır. Keçən il ölkə üzrə rekord göstərici əldə olunub - 294 min ton "ağ qızıl" yığılıb və hər hektarın məhsuldarlığı 29,4 sentnerə yüksəlib. Aqrar sahədəki belə uğurlar dövlətin göstərdiyi diqqət və qayğının, o cümlədən subsidiyaların vaxtında ödənilməsinin, sahibkarların texnika, mineral gübrələr, kimyəvi maddələr, suvarma suyu, yüksək reproduksiyalı toxumla təmin edilməsi nəticəsində mümkün olmuşdur.

Bu gün turizm ölkəmizdə sürətlə inkişaf edir. Dünyanın müxtəlif yerlərindən hər il milyonlarla turist istirahət etmək, gəzmək üçün Azərbaycanı seçir. Bu üzdən ölkəmizdə dünya standartları səviyyəsində hotellər, istirahət mərkəzləri tikilir və infrastruktur layihələri həyata keçirilir. Turizm sahəsində davamlı surətdə uğura nail olmaq üçün Azərbaycanda qış turizmi bazası da yaradılıb. Bu mənada "Şahdağ" Turizm Kompleksi dünyadakı bu tipli komplekslərdən müasirliyi və universallığı ilə fərqlənir. Qəbələ rayonundakı "Tufandağ" Xizək Kompleksi də turistlərin sevdikləri məkanlardandır.

Turizmin inkişafında, ümumiyyətlə, ölkənin həyatında yolların rolu danılmazdır. Bu gün ölkəmizdə daxili yolların uzunluğu 16 min kilometrdən çoxdur və onların əksər hissəsi yenidən qurulub. Bütün yollar boyu körpülər, keçidlər, suötürücüləri, yol ayırıcıları və s. tikilib. Rahat, təhlükəsiz, üstəlik vaxt itkisinin qarşısını alan bu yollar təkcə əhalini rahatlığa çıxarmayıb, həm də ölkənin iqtisadi inkişafını sürətləndirib. Bunları görüb sevinirsən, fərəhlənirsən, duyğulanırsan. "Yollar, körpülər" şeirimdə olduğu kimi:

*Yollar rişə-rişə, damar-damardır,*
*Yollarda qoşadır xeyir ilə şər.*
*Yollar dağ-dərəli, həndirhamardır,*
*Onlar körpülərdə gəlib birləşər.*

*...Günəş xislətində yaşar körpülər,*
*Yaxşılıq etməkdən usanmaz, doymaz.*
*Deyirəm, bəlkə də, buna görədir,*
*Heç vaxt körpülərə qapı qoyulmaz.*

*Sinəsi qürurdan qabarar onun,*
*Çiynində həm sevinc, kədər daşıyar.*
*Mənası, məqsədi, məramı aydın,*
*Körpülər ömrünü belə yaşayar.*

Sürətli inkişafın, qarşılıqlı anlaşmanın, xarici ölkələrlə səmərəli dialoqun, xalqlar arasında sülh, əmin-amanlıq ideyalarının təbliğ edilməsi üçün görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan müxtəlif beynəlxalq tədbirlərin, müzakirələrin keçirildiyi mərkəzə çevrilmişdir. Biz dünyanın sülh və barış içində olmasını istəyirik və bu məsələlərdə çoxlarına nümunəyik.

Bəli, 30 ilə yaxın yaşı olan müstəqilliyimizin nailiyyətləri saysız-hesabsızdır. Muğamımız, aşıq sənətimiz, bir çox mədəniyyət və tarixi abidələrimiz UNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Dövlət bayrağımız xarici ölkələrdəki diplomatik korpuslarımızın, beynəlxalq təşkilatların binaları qarşısında dalğalanır. Səmadakı 3 peykimizlə dünya kosmik ailəsinin üzvüyük. Qazanılan uğurların, qələbələrin hansını deyəsən, hansından yazasan?!

*Dünəninə, bu gününə*
*nəzər salıb*
*Oğlun, qızın fərəhlənir,*
*dost sevinir.*
*Hər birinin sinəsində*
*çırpınaraq*
*Pöhrələnən neçə-neçə*
*arzu, istək,*
*dilək dinir.*
*Qaranlığa işıq saçan*
*Xoş, mehriban gözlər gülür.*
*Ağ bənizli, qara xallı*
*üzlər gülür.*
*Sevincindən dilə gələn*
*Milyon-milyon ürəklər də*
*belə deyir:*
*-Yüksəlişin mübarəkdir,*
*Azərbaycan!*

Azərbaycan beləcə inamlı addımlarla irəliləyir. İqtisadi qüdrəti artdıqca beynəlxalq aləmdə hörməti, nüfuzu yüksəlir. Bütün bunlar xalqımızı hədsiz dərəcədə sevindirir, ruhlandırır. Lakin istər xaricdə, istərsə də daxildəki bəzi bədxah, xain, xəbis qüvvələr bu tərəqqini, yüksəlişi sanki görmür, əldə olunan uğurlarımızın üstünə kölgə salmağa çalışır, bunun üçün hər cür çirkin yollardan istifadə etməyə cəhd göstərirlər. Amma əbəs! "Karvan gedir" adlı şeirdə yazmışam:

*...Öz yolunu, düz*
*yolunu*
*seçib gedir bu*
*karvan.*
*Fəqət, fəqət zaman-zaman*
*gah bu yandan,*
*gah o yandan,*
*gah uzaqdan,*
*gah yaxından,*
*bu dünyanın*
*gərdişini,*
*yaxşısını, həm*
*pisini*
*baxar kortək görməyənlər,*
*bilməyənlər*
*bu karvanın arxasınca*
*kölgə kimi sürünənlər*
*Hey hürürlər.*
*Hürə-hürə günlərini*
*keçirirlər.*
*Qoy hürsünlər.*
*Onların da peşələri,*
*sənətləri bu hürməkdir.*
*Buna görə aldıqları*
*qrantlardır, yağlı-yağlı*
*dürməklərdir.*
*Bu məqamda, bu*
*arada*
*ataların: "Hürən hürər,*
*Karvan keçər", -*
*Bir məsəli düşür*
*yada.*
*Deyirlər ki, yaxşı-pisdən*
*əməl qalır*
*bu dünyada.*

**Seyran CAVADOV,**
**"Azərbaycan"**


## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tender elan edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 107 ünvanında yerləşən inzibati binanın həyətyanı sahəsində mövcud yardımçı binanın (keçmiş qaraj binası) təmiri işlərinin satın alınması.**

**LOT 2 432/434 indeksli ATS binasının 4-cü mərtəbəsində yeni yaradılacaq "İCT news" elektron xəbər xidmətinin yerləşdirilməsi ilə əlaqədar təmir-tikinti işlərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1. 450 (dörd yüz əlli ) manat (ƏDV daxil)**
**LOT 2. 350 (üç yüz əlli) manat (ƏDV daxil)**

İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**hesab: AZ14AZPO91015461200420100157**
**bankın adı: Azərpoçt MMC PF 1**
**kodu: 691011**
**bankın VÖENi: 9900037711**
**m/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər 04 aprel 2020-ci il saat 17:00-dək aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında vergi və sosial müvafiq orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **12 aprel 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **13 aprel 2020-cu il saat (LOT-1 11:00, LOT-2 15:00)** dövlət satınalmalarının vahid internet portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada **etender@gov.az** dövlət satınalmalarının vahid internet portalında aparılır.

***Tender komissiyası***



## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tender elan edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 Avtonəqliyyat vasitələrinə texniki xidmət, eləcə də sürtgü materiallarının və ehtiyat hissələrinin dəyişdirilməsi və təmir xidmətlərinin satın alınması.**

**LOT 2 Nəqliyyat vasitələri üçün avtoşinlərin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tender təkliflərini dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1. 500 (beş yüz) manat (ƏDV daxil)**
**LOT 2. 250 (iki yüz əlli) manat (ƏDV daxil)**

İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**hesab: AZ14AZPO91015461200420100157**
**bankın adı: Azərpoçt MMC PF 1**
**kodu: 691011**
**bankın VÖENi: 9900037711**
**m/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **04 aprel 2020-ci il saat 17:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında vergi və sosial müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **12 aprel 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **13 aprel 2020-cu il saat (LOT-1 11:00, LOT-2 15:00)** dövlət satınalmalarının vahid internet portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada **etender@gov.az** dövlət satınalmalarının vahid internet portalında aparılır.

***Tender komissiyası***




● İlin əziz günləri

# Od çərşənbəsi



**Yaradılışın mərhələlərini əks etdirən dörd ünsür - su, od, yel və torpaq... Novruz bayramına qədərki dörd çərşənbəni tədqiqatçılar bununla əlaqələndirirlər. Uzun illərdir ki, bu çərşənbələrdən ikincisi Od çərşənbəsi kimi qeyd edilir. Od çərşənbəsinə xalq arasında Üskü çərşənbə, Üskü gecəsi, Adlı çərşənbə, Ocaq çərşənbəsi, Atəş çərşənbə, Xıs çərşənbə, Xızır çərşənbə də deyirlər.**

Od çərşənbəsinin mahiyyətində odun müqəddəs sayılması ifadə olunur. İlk bəşər övladları odu, ocağı, Günəşi yalnız istilik, sağlamlıq gətirdiyinə, təbiəti canlandırdığına görə sevib, əzizləməyiblər, həm də onları şərdən qoruyacağına, xeyirin qələbə çalacağına inanıblar. Qədimdən od insanı yaşadığı yerə, obaya bağlayıb. Azərbaycan xalqı qədim zamanlardan, yurd salıb binələndiyi yerə çox zaman ocaq deyib. Ocağı işığın, istiliyin, birliyin, bərabərliyin, ümidin, xoşbəxtliyin rəmzi hesab edib. Əcdadlarımızın oda sitayişi, şərəfinə şənliklər təşkil etdikləri, ocaq qarşısında səcdəyə durub oyun və ayinlər keçirdikləri bir çox mənbələrdə də əksini tapıb. Qobustan qayaüstü rəsmlərindəki ocaq ətrafında "yallı" gedən insan təsvirləri bunun ən maraqlı nümunələrindəndir.

Odla bağlı bir sıra inanclarımız bu gün də yaşadılır. Bir çox yerlərdə indi də müqəddəs tutulan ziyarətgahlara ocaq deyirlər. Bəzi bölgələrimizdə gəlin köçən qızlar ata evindən çıxanda onları ailənin və ya nəslin ağsaqqalı üç dəfə yanan çırağın ətrafında dolandırır. Gəlin yeni evinə, ocağına yanan çıraqla gedir. Bu adət-ənənələrə xüsusi diqqətlə əməl olunur. Çalışırlar ki, çıraq bəy evinədək sönməsin. Çünki gəlinin ardınca çıraq aparılması xoşbəxtlik rəmzi hesab olunur.

İnanclara görə, atəşə su tökmək, oda, ocağa pis söz söyləmək olmaz. İnsan odu, ocağı, Günəşi əzizləyərsə, çətinlikləri azalar, suların donu açılar, buzlar əriyər, təbiət isinməyə başlayar.

Od çərşənbəsində tonqal qalama mərasimi o biri çərşənbələrdən daha möhtəşəm keçirilir. Tonqal elə yerdə yandırılırdı ki, hər tərəfdən görünsün. Qədim dövrlərdə Od çərşənbəsində tonqalı hündür yerdə-dağ, təpə başında qalayıb, el tonqalın başına yığışarmışlar. Qızgəlinlər odun şərəfinə nəğmələr söylərmişlər.

Çərşənbə tonqalı, adətən, yaş ağacdan qalanmır. Folklorşünaslar bildirirlər ki, əcdadlarımız yaş və acı tüstülü ağacdan tonqal qalayan adama sədəmə toxunacağına inanıblar. Tonqal quru odun, kol-kos və ya çırpıdan hazırlanmalı, tikan və təmiz ağac budaqlarından çatılmalıydı. İnanırdılar ki, şər qüvvələr qaratikanın batmasından qorxub tonqala yaxın gəlmirlər. Tədqiqatçılar qeyd edirlər ki, bəzi bölgələrdə tonqala üzərlik də atar, bununla bədnəzərdən qorunacaqlarına inanırdılar.

Qədimdə Od çərşənbəsində qonum-qonşular yasda olan ailənin həyətində tonqal yandıraraq bununla həmin ailəni yasdan çıxarıblar. Tədqiqatçılar bildirirlər ki, qədimdə evlərdə ocağı sönməyə qoymurdular. Yalnız kimsə ölmüş olarsa odu çıxarıb xüsusi yerdə saxlayardılar və qış vaxtı 5 gündən sonra, yayda isə bir aydan sonra odu evə qaytarardılar.

Od çərşənbəsində bayram tonqalını həyət darvazasının ağzında qalanması da inanclarımızla bağlıdır. Bunu həyətə keçənlərin özləri ilə pis niyyət, ağırlıq gətirə bilməmələri üçün ediblər. Çünki qara qüvvələri odun məhv edə biləcəyinə inam xalq düşüncəsində bu gün də yaşayır.

Unudulmamış adət-ənənələrimizdən biri də Od çərşənbəsində tonqal qalayıb, üç dəfə "Ağırlığım, uğurluğum odda yansın" - deyib odun üstündən tullanmaqdır. İnanca görə, bununla xəstəliklərdən xilas olmaq, azarbezardan qurtulmaq mümkündür.

Od çərşənbəsində ailə üzvlərinin adına şamlar yandırılır. Bəzi bölgələrdə ölənlərin ruhu üçün bir şam ayrılır.

Od çərşəbəsində ocağı boş qoymazlar. Həmin gün süfrəyə şirniyyatlarla dolu xonçalar qoyular, plov dəmlənər, xörəklər bişirilər. Bu adət-ənənəyə riayət etməklə insanlar ilin bərəkətli olacağına inanırlar.

Od çərşənbəsinin qədim ayin və mərasimlərindən biri "Qodu-qodu" oyunudur. Bu mərasim Günəşi çağırmaq, ondan istilik diləmək üçün icra olunur. Kənd cavanları qırmızı rənglə bəzədilmiş çömçəni Günəşin rəmzi kimi götürüb qapı-qapı gəzirlər.

*Qodu-qodunu gördünmü?*
*Qoduya salam verdinmi?*
*Qodu burdan ötəndə*
*Qırmızı günü gördünmü?*

*Qoduya qaymaq gərək,*
*Qablara yaymaq gərək,*
*Qodu gün çıxarmasa,*
*Gözlərin oymaq gərək.*

*Yağ verin yağlamağa,*
*Bal verin ballamağa,*
*Qodu gülmək istəyir.*
*Qoymayın ağlamağa.*

Mərasim zamanı bu nəğməni oxuyar, evlərdən bayram paylarını alarlar.

Od çərşənbəsində Boz ay ömrünü yarılayır. Bundan sonra təbiət bütün canlılara baharın gəlişini hiss etdirməyə başlayır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Adətlər və inanclar

# Novruzun ilk müjdəçiləri

**Uzun illər boyu xalqımıza, eyni zamanda türk ellərinə yaz fəslinin gəlişini xəbər verən müjdəçilər içərisində quşların adı xüsusi çəkilir. Yazın ilk əlaməti olaraq hacıleyləklərin qayıtması Kiçik çillənin sonu - Çillə beçənin (Boz ayın) əvvəllərinə təsadüf edilir.**

Bundan sonra havalar bir neçə günlüyə soyuyur, dəli küləklər əsir. Buna "Leylək boranı" deyilir. Xalq arasında söyləyirlər ki, gərək leylək yumurtasının üstünə qar yağa. Ümumən hacıleyləklər erkən qayıtdıqlarından öz köhnə yuvalarına dönür, Novruzu orada keçirirlər. Bu vaxtlar ağacların başını quş yuvaları bəzəyir. Eyvanlarda baharın ilk müjdəçiləri sayılan şanapipiyin, qaranquşun, alacəhrənin civiltisi, nəğməsi eşidilir. Baharın soraqçısı hacıleylək inamı xalq arasında maraqlı əhvalatla yadda qalıb. Yazqabağı ilk dəfə hacıleyləyi görən uşaqlar, yeniyetmələr yaşlılardan muştuluq alardılar. Deyərdilər ki, hacıleyləklər yazın muştuluqçusudur. Böyüklər soruşardılar: "De, görək hacıleyləyin dimdiyində nə var?" Deyərdilər ki, "sünbül". Bu, bolluq, bərəkət rəmzi hesab edilərdi.





**Novruz bayramı ərəfəsində bütün evlərdə bərəkət nişanəsi olan taxıl-səməni göyərdilir.**

## Səməni

Yazın gəlməsi, torpağın oyanması, təbiətin canlanması, yaşıllıq rəmzi sayılan səməni Novruz süfrəsində ən görkəmli yeri tutur. Qohum-qonşular bir-birinə səməni yollayırlar. Təzətər səməninin şərəfinə qədim mahnılar oxunur, alqışlar söylənilir. Əkinin, məhsulun bolluğunun rəmzi olan səməni qoymaq çox-çox qədimlərdən adət olub. Yazlıq əkinqabağı səməni cücərtmək ənənəsi xalqın çörəyə, qüdsiyyətə ehtiramı, səcdəçisi kimi başa düşülür, azərbaycanlıların şifahi poeziyasında bolluq, səadət arzusu ifadə edir.

Səməninin varlığı, həyatverici gücü, mənası torpağa tapınmaqdır. Səməni göyərtməklə əkinçi babalarımız ümidini, arzusunu, ruzusunu göyərdərmiş.

Səməni, ay səməni,
İldə göyərdərəm səni.
Sən gələndə yaz olur,
Yaz olur, avaz olur.
Səndən mən can istərəm,
Damara qan istərəm,
Qanın təmiz gərək,
Dosta sanım gərək.
Sənsiz qanım olmaz,
Cansız sanım olmaz.
İllətimin loğmanı,
Yamanlığın amanı.
Səməni, ay səməni,
İldə göyərdərəm səni.

## Bayatılar

Suda yandı...
Od yandı, su da yandı.
Dərdimi suya dedim,
Od tutdu, o da yandı.

Düşən yeri...
Atlanıb düşən yeri.
Göz yaşım oda dönüb,
Yandırır düşən yeri.

Altımda kilim yandı,
Od düşdü kilim yandı,
Bala, bala deməkdən,
Ağzımda dilim yandı.

Üzərlik dana-dana,
Ocaqdan götür sana.
Bala-bala deməkdən,
Nəzəri bəd olanın,
Gözləri odda yana.

Köynəyin gülü yansın,
Od tutsun, gülü yansın.
Səni məndən edənin,
Ağzında dili yansın.

Ocağın odu keçdi,
Yel vurdu, odu keçdi.
Nə baxırsan, ay oğlan,
Sevgilin budu keçdi.



## Oğlaqqıran



Novruzda, baharın əvvəllərində qəfildən başlanan küləkli, soyuq günlərə Oğlaqqıran adı veriblər. Bu müddətdə qışdan zəif çıxan heyvanlar, ilk növbədə, oğlaqlar - keçi-çəpiş, qoyun-quzu soyuğa davam gətirmir, tələf olurlar. Bu müddət bir çox yerlərdə "danaqıran" adı ilə də tanınır. Elat camaatı həmin dövr üçün "davar doymaz, yatar durmaz, gedər gəlməz" - deyir. Odur ki, bu zaman üçün mərəkdə (samanlıqda) yem ehtiyatı saxlanılır.

## Ruzi yağıntısı



Qışın qurtarıb yazın başlandığı vaxtda yağan qara, yağışa ruzi yağıntısı deyirlər. İlaxır çərşənbələrin yerə dəyən istiliyi torpağı oyadır. Donu açılmış torpaq yumşalır. Bu vaxt yağan qar, yağış rahat-rahat torpağın canına hopur, əkinəcəyin məhsuldarlığını qat-qat artırır. Buna görə də deyilən vaxtda yağan qar, yağış ruzi yağıntısı adlanır.

## Piyalə və ox



Bu, Novruz çərşənbələrində və digər el şənliklərində təşkil edilmiş atüstü oyundur. Orta əsrlərdə geniş yayılmış belə oyun klassik ədəbiyyatımızın nümunələrindən də bəllidir. Məlumata görə, oyunda bir neçə nəfər iştirak edir. Meydanın ortasında basdırılmış hündür dirəyin başına içi sikkə ilə dolu piyalə qoyulur. Süvarilər hər dəfə çaparaq dirəyin yanından keçərkən eyni yerdə çevrilib ox atırdılar. Oxlar qıjıltı ilə piyalənin yanından ötüb keçir. Sərrast nişan alıb bu qiymətli mükafatı vurub salan qalib sayılır və piyalədən tökülən sikkələr ona çatırdı.

***Hazırladı: İradə ƏLİYEVA***
***Fotolar Ağaəli MƏMMƏDOVUNDUR***
***"Azərbaycan"***

● Novruz ədəbiyyatda

# Görkəmli ədəbi simaların əsərlərində baharın tərənnümü

**Yazıçı, şair, dramaturq, ictimai xadim Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisidir. Ədibin bir çox əsərlərində zəngin etnoqrafik materialların təsviri çoxluq təşkil edir. Onun "Bahar haqqında" məqaləsində Novruz bayramından, onun tarixi köklərindən, bayramla bağlı adət-ənənələrdən bəhs olunur. M.S.Ordubadinin məqaləsini oxuculara təqdim edirik.**



"Şərq məmləkətləri içərisində dörd fəsli bir-birindən aydın ayrılan məmləkətlərdən birisi də bizim yaşadığımız Azərbaycan ölkəsidir. Xüsusən Araz çayı ilə Kür çayının arasına düşən Arran ölkəsi əsrlərlə bundan əvvəl məşhur yunan tarixçisi Heredotun və amasiyalı Strabonun nəzərlərini özünə cəlb etmişdi.

Bu ölkədə qış fəsli çıxan kimi təbiət birdən-birə dəyişir, mülayim və ılıq küləklər əsir, havalar isinir.

Burada bahar gəlincə təbiətin pərdənişin gəlinləri bəzənərək bahar səhnəsinə çıxar, novruzgülünün yanağından şadlıq tərləri damcılar, torpağın beşiyində yatan körpə otlar yuxulu gözlərini açıb təzə gəldiyi yeni dünyanın möcüzəkar təbiətinə baxaraq şirin-şirin gülümsər, meşələrdə, çaylarda, bulaqların və hovuzların kənarında, yaşıl köynəkli təpələrin döşündə lalələr, yabanı qərənfillər tumurcuqlanar.

Bahar gələn kimi Azərbaycan dağları, çölləri, bağları, düzləri Tovuz quşunun qanadları kimi bəzənər, zanbaq gülləri nazik dodaqlarını açaraq, Azərbaycan təbiətinə həsr etdiyi qəsidələrini oxuyar, bu zaman bahar şəbnəmlərində çimən yasəmənlər də saçlarını yaşıl budaqların üzərinə sərib qurutmağa başlar.

Elə bil ki insan quşların nəğmələrində bu sözləri eşidər:

- Doğrudan da baharın bu dilbura və təntənəli gününü bayram etməmək qabilmidir?

Bu zaman bütün kainatda bir hərəkət başlar. İnsanlarda, quşlarda, hətta aciz qarıncalarda belə bir təlaş və bir həyacan hiss edilməyə başlar. Ev qadınları evinin şeylərini eşiyə tökər, otaqları ağardar, qışın kəsif və ağır havasını evdən təmizlər, baharın birinci gününü təmiz vicud və təmiz libaslarla qarşılarlar.

Quşlar dəxi yuvasını təmizlər, təzə yuva tikmək üçün çalışar, qarıncalar yuvasındakı toxum töküntülərini bayıra çıxarıb təzə toxum tədarükü üçün anbarlarını düzəldər, cütçülər ziraət alətlərini sahmana salar, işə çıxmaq üçün mal-qarasını hazırlar.

Buna baxmayaraq Bahar bayramının mövzusu və mündərəcəsi üzərində bir çox fikirlər mövcuddur. Bəziləri buna dini rəng verməyə çalışırlar. Məsələn, iranlılar ilk Bahar bayramını dövlət bayramı - deyə, isbat etməyə çalışırlar.

Lakin etnoqrafiya (elmi-əqvam) alimlərindən fransalı Jerando və din elmləri mütəxəssislərindən məşhur Spenser xalqlarda mövcud olan Bahar bayramını tamamilə dini mahiyyətdən uzaq bir hadisə kimi qiymətləndirirlər.

Bahar bayramını din və dövlətlə əlaqədar etmək uğrunda yürüdülən fikirlərin hamısı müvəffəqiyyət qazana bilməyərək, bir əfsanə halında qalmışdır.

Əksinə, fransız tədqiqatçısı Jerando və din tənqidçilərindən Spenserin Bahar bayramının iqtisadi və ictimai amillərin məhsulu olduğu barəsində bir çox qeydləri vardır. Onlar Bahar bayramını, hər şeydən əvvəl, bir əkinçilik bayramı olduğu ehtimalını irəli sürürlər. Bahar bayramının üzərinə hökumət bayramı damğası vurmaq istəyənlər boş bir əllə meydana çıxmışlar. Onlar bu günü Cəmşidin tacgüzarlıq gününə tətbiq etməyə çalışırlar. Lakin bu iddianı heç bir tarixi vəsiqə ilə isbat edə bilmirlər.

İlk Bahar bayramının nə islam dini, nə də islamiyyətdən əvvəl mövcud olan dinlərlə əlaqədar olmadığı bu bayramın ayrı-ayrı xalqlar arasında çox qədim zamanda mövcud olduğu ilə sübut olunur. İndi artıq demək lazımdır ki, bu bayram Azərbaycan xalqının milli və ənənəvi bayramıdır.

Azərbaycanlılar islamiyyəti qəbuldan əvvəl Zərdüşt dininə inanmış, oda sitayiş etmişlər. Zərdüştün məzhəbi zamani-zühurundan indiyə qədər bir çox dəyişikliklərə uğramış və bir çox şöbələrə ayrılmışdır. Buna baxmayaraq onun bütün şöbələrində Məzdəkizmin mühüm ənənələri öz orijinallığını itirməmişdir. Məzdəkizmdən ayrılmış olan xalqların içərisində bu günə qədər tarixi ənənələr davam etdirilməkdədir.

Qədim azərbaycanlılar içərisində torpağa hörmət və təzə tarlalar yaratmağa olan sevgi o qədər yüksək və o qədər müqəddəs sayılırdı ki, onlar baharın ilk gününü bir tarla bayramı və bir təsərrüfat bayramı kimi həmişə şadlıqla qarşılayırdılar.

Baharın ilk günü gecə ilə gündüz bərabərləşir. Günəş Həməl bürcünə daxil olduğu üçün dağların qarlarını əridir. Çaylar, şəlalələr, buludlar coşur, torpağın və ziraətin bərəkətinə imkan yarardır - deyə, azərbaycanlılar baharın ilk gününü milli və ənənəvi bir bayram olaraq davam etdirirlər.

Baharın ilk gününü bayram etmək adəti yalnız Azərbaycan xalqına məxsus bir adət deyil, bu bayram əski romalılarda dəxi eyni şəkil və eyni halda davam etmişdir. Əski Romada bugünkü Azərbaycanda olduğu kimi, baharın birinci gününü bayram etmək üçün vaxtkən hazırlıq aparılırdı. Adamlar yuyunub təmizlənir, təzə paltarlarını geyinir, damlarda, həyətlərdə tonqal çatıb üzərindən hoppanır və bayram günü meşələrdə, tarlalarda toplanıb, çalıb oynayırdılar.

Novruz bayramını eyni şəkildə bayram etmək Azərbaycanda dəxi bir adətdir.

Ümumiyyətlə, demək olar ki, xalqlarda mövcud olan Bahar bayramı eyni və bir mövzunun müxtəlif şəkillərindən başqa bir şey deyildir. Əlbəttə, bu bayram zaman və məkana görə, yaxud mühit və tarixi dövrlərlə əlaqədar olaraq, xalqın zövq və istedadına tabe olmaqda müxtəlif və cürbəcür şəkillərdə icra olunur və bəzən də yerini Romada və s. ölkələrdə olduğu kimi başqa bayramlara təslim edir.

Lakin Azərbaycanda saxlanılan Bahar bayramının iqtisadi və ənənəvi əhəmiyyətindən əlavə, bir də ictimai qiyməti var.

Bahar bayramında bütün bir ili görüşməyənlər görüşür. Xalq bir-birinin əlini dost kimi sıxır. Bir-birinin kefini soruşur və bir-birlərinin vəziyyətləri ilə tanış olurlar.

Bayram günü... təziyəlilər matəmdən çıxır, onlar matəm qarasını çıxarıb təzə və əlvan paltarlar geyinərək kütlələrə qoşulurlar...

Bütün bunları nəzərə alaraq demək ki, Bahar bayramı ictimai həyatın təzahüratına xidmət üçün yaradılmış ən gözəl bir vasitədir".

***M.S.ORDUBADİ,***
***mart, 1946-cı il***

## Sumqayıt Şəhər İcra Hakimiyyəti 2020-ci ildə "Dəftərxana və təsərrüfat xərcləri" maddəsi üzrə bütün növ dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

LOT 1- 221100 "Dəftərxana və təsərrüfat xərcləri" maddəsi üzrə bütün növ dəftərxana və təsərrüfat mallarının alınması

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar hər bir LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT-1 200 manat.**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y İqtisadi təsnifat 142330**
**VÖEN: 2900054881**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır .

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 08 aprel 2020-ci il saat 16:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 16 aprel 2020-ci il saat 16:00-a qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri 17 aprel 2020-ci il saat 16:00-da Portalda açılacaqdır.

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

**LOT 1:** Avtonəqliyyat və xüsusi texniki vasitələrin təmiri və texniki qulluq xidmətinin satın alınması.

**İştirak haqqı: 500 (beş yüz) manat.**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Tenderin Əsas Şərtlər Toplusunu **etender.gov.az** vahid satınalma portalından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti, 187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma portalında yerləşdirməlidirlər.

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının anoloji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin Əsas Şərtlər Toplusunda nəzərdə tutulan və Tenderin Əsas Şərtlər Toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

*İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.*

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **13 aprel 2020-ci il saat 11.00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **21 aprel 2020-ci il saat 17.00-dək** vahid satınalma portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **22 aprel 2020-ci il saat 11.00-da** vahid satınalma portalında açılacaqdır.

***Tender komissiyası***

# Dövlət Sərhəd Xidməti və Hərbi Prokurorluq birgə məlumat yayıb

Son zamanlar Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən müxtəlif istiqamətlərdən atəşkəs rejiminin mütəmadi və kobud şəkildə davamlı olaraq pozulması halları intensivləşib.

Dövlət Sərhəd Xidmətinin (DSX) və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun mətbuat mərkəzlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, fevralın 24-də saat 07:00 radələrində Ermənistan silahlı qüvvələrinin Noyemberyan rayonunun Koti kəndi yaxınlığında yerləşən bölmələrindən Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətindəki DSX-nin sərhəd döyüş məntəqəsinə diversiya cəhdinin qarşısı alınıb. Ciddi döyüş itkiləri vermiş düşmən geri çəkilməyə məcbur olub. Düşmənin diversiya qrupunun qumbaraatan və digər iriçaplı silahların tətbiqi ilə baş verən təxribatın qarşısı alınarkən sərhədçi əsgər Vəliyev İbrahim Ələmşah oğlu qəhrəmancasına şəhid olub. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərini qoruyan Dövlət Sərhəd Xidmətinin əsgərinin qətlə yetirilməsi cinayətdir və bu qanlı cinayətin məsuliyyəti Ermənistan tərəfinin üzərindədir.

Hadisənin baş verdiyi sərhəd döyüş məntəqəsinin yaxınlığında düşmənin silahlı basqın zamanı istifadə etdiyi və geri qaçdığı zaman ərazidə atmaq məcburiyyətində qaldığı PK markalı pulemyot üçün 100 gülləlik lent, partlamamış "RQ-42" əl qumbarası, 7,62 millimetrlik 66 giliz, kəşfiyyat-diversiya qrupu üzvlərinin ərzaq çantası (içərisində konservlər, fərdi su ehtiyatı, çörək məmulatları) aşkar olunub.

Fakt üzrə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.12-ci, 29,120.2.4-cü, 29,120.2.7-ci və 29,120.2.12-ci maddələri ilə cinayət işi başlanılıb, prosessual hərəkətlər həyata keçirilməklə düşmənin diversiya qrupunun hərbi qulluqçularımızı qəsdən öldürmək və döyüş postumuzu ələ keçirmək məqsədi ilə hücuma keçərək təxribat törətməsi müəyyən olunub və hazırda zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Düşmənin silahlı təxribatının qarşısını alarkən fərqlənmiş sərhədçilər Dövlət Sərhəd Xidməti rəisinin əmrləri ilə medal, qiymətli hədiyyə və fəxri fərmanlar ilə təltifləndiriliblər. Qəhrəmancasına həlak olmuş əsgər Vəliyev İbrahim Ələmşah oğlu ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.

Diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınan və bu cəhdlər zamanı ciddi döyüş itkiləri verən Ermənistan silahlı qüvvələrinin bölmələri təmas xəttində təxribat xarakterli əməllərini davam etdirirlər. Martın 1-də DSX-nin Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının Qazax rayonunun Xanlıqlar və Quşçu Ayrım kəndləri yaxınlığında yerləşən sərhəd döyüş məntəqələri iri çaplı silahlardan intensiv atəşə tutulub, cavab atəşi ilə düşmənin döyüş mövqeləri susdurulub.

Ermənistan tərəfinin təmas xəttində təxribat xarakterli bütün əməllərin qarşısının alınması və törədilmiş hər bir cinayətə görə təqsiri olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməklə cəzalandırılması üçün bütün zəruri tədbirlər görüləcək.

# Vətəndaşların qəbulu keçirilib

Energetika naziri Pərviz Şahbazov martın 2-də Salyan rayon Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, qəbul zamanı vətəndaşlar elektrik enerjisi təchizatı, elektrik enerjisindən istifadəyə görə yaranmış borcun ödənilməsi, elektrik qurğu və avadanlıqların istismara yararsız olması, işlə təminat və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar.

Energetika Nazirliyinin aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciəti dinlənilib və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

Vətəndaş qəbulu zamanı Sabirabad rayonu və Gəncə şəhərindən qəbula gələn vətəndaşların da müraciətləri dinlənilib və onların həlli üçün lazımi göstərişlər verilib. Qəbulda 8 vətəndaşın müraciətinə baxılıb.

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən abadlıq işlərinin satın alınması məqsədilə keçirilən kotirovka sorğusu prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusu prosedurunun nəticələri haqqında Tender komissiyasının 06 fevral 2020-ci il tarixli yekun protokoluna əsasən "Piramida F.R." MMC qalib elan edilmişdir. Həmin təşkilatla 13.02.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## Lənkəran Dövlət Universiteti bioloji aktivlərin alınması və yetişdirilməsi işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 05.03.2020-ci il saat 18:00-dək qəbul olunur .

**Ünvan: Lənkəran şəhəri, Həzi Aslanov, 50.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Salyan Rayon İcra Hakimiyyəti tərəfindən "2020-ci ildə küçə və səkilərin abadlaşdırılması, əsaslı təmiri", "Salyan şəhərindəki yolların əsaslı təmiri", "Salyan şəhərindəki 5 yaşayış binasının dam örtüklərinin əsaslı təmiri", "Kütləvi bayram tədbirlərinin təşkili" işlərinin satın alınması üzrə elan edilmiş tenderlərdə iddiaçıların müraciətlərinə əsasən tender təkliflərinin və təminatlarının təqdim olunması, eləcə də zərflərin açılış tarixləri 16 mart 2020-ci il tarixə dəyişdirilmişdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**1. Aparatın inzibati binasının həyatyanı sahəsində abadlaşdırma işlərini;**
**2. Avadanlıqların normal fəaliyyətini təmin etmək üçün periodik texniki dəstəyin göstərilməsi xidmətini**

kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğularında iştirak etmək üçün sənədlər 2020-ci il 06 mart saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC 2020-ci il üçün

### *kotirovka sorğusu elan edir*

1. Aşağıda göstərilən xidmətlər üzrə qiymətlərin elan olunmasına dəvət edilirsiniz:
- İnventarların satın alınması üzrə.

2. Kotirovkalar sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 11 mart 2020-ci il (saat 16:00) tarixinədək qəbul olunur.

3. Tələb olunan sənədlər:
- Nizamnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- Kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında məlumat (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- Vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün);
- Satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması (malgöndərən təşkilatın kommersiya qurumunun dövlət reyestrindən çıxarışlarının və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti);
- Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olması barədə məlumat (malgöndərən təşkilat tərəfindən hazırlanır);
- Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması (malgöndərən təşkilat Ədliyyə Nazirliyindən).

Ünvan: AZ1005, Bakı şəh., Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13. Əlaqələndirici şəxs Nəsimi Kərimzadə.Telefon: (+99412) 497-41-70,

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu, fondun aparatının istifadəsində olan katriclərin dolumunun təmin edilməsi işlərinin satın alınması üçün

### *kotirovka sorğusu elan edir*

Təkliflər 04 mart 2020-ci il saat 11:00-a qədər Bakı şəhəri, H. Zərdabi prospekti, 80 ünvanına, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Aparatına təqdim olunmalıdır.

Zərflər 04 mart 2020-ci il saat 12:00-da H. Zərdabi prospekti, 80 ünvanında nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun inzibati binasında açılacaqdır. Əlavə məlumatı Tender komissiyasından ala bilərsiniz.

**Əlaqə telefonu: 012-530-29-03**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun "Məxfi sığortaolunanların uçotu, hesabatlarının qəbulu və Vergilər Nazirliyi ilə məlumat mübadiləsinin təkmilləşdirilməsi" işlərinin satın alınması məqsədilə 29 dekabr 2019-cu il tarixdə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində **"AİSTGroup" MMC** qalib müəyyən edilmiş və satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən istifadə üçün "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyətinə verilmiş 0313816 nömrəli "İnzibati xəta haqqında protokol" blankı itdiyi üçün etibarsız sayılır.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

## ALLAH RƏHMƏT ELƏSİN!

Ləbib Ləbibov, Afik Vəlimətov, Akif Rüstəmov, Telman Rəhimov Araz və Aqşin Zeynalovlara ataları

**HİDAYƏT ZEYNALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6950
Sifariş 670
Qiyməti 40 qəpik